

# BOSNİYA VƏ HERSEQOVİNA:

## *TARİX, MÜNAQİŞƏ VƏ SÜLH ÜZRƏ MƏQALƏLƏR TOPLUSU*



“TƏHSİL SƏFƏRLƏRİ” SERİYASINDAN

# BOSNİYA VƏ HERSEQOVİNA: TARİX, MÜNAQİŞƏ VƏ SÜLH ÜZRƏ MƏQALƏLƏR TOPLUSU

**Avrasiya Əməkdaşlıq Fonu (AƏF) Azərbaycan** – AƏF Azərbaycan fərdlərə sosial ədalət və iqtisadi inkişaf üçün faydalı olan proqramlar vasitəsilə dəyişiklik etməyə imkan yaradaraq onlara öz icmalarını və həyatlarını yaxşılaşdırmağa yardım etmək üçün fəaliyyət göstərən qeyri-kommersiya təşkilatıdır.

**Topçubaşov Mərkəzi -** Topçubaşov Mərkəzi 2018-ci ilin aprelində qurulmuş beyin mərkəzidir. Mərkəz Azərbaycanın əsas beyin mərkəzlərindən biri olaraq, post-sovet ölkələri, Mərkəzi və Şərqi Avropa, eləcə də Yaxın Şərq regionları ilə bağlı beynəlxalq münasibətlərin və geosiyasi proseslərin təhlili ilə məşğul olur. Onun əsas fəaliyyəti bu bölgələrdə geosiyasi dinamika, təhlükəsizlik, iqtisadiyyat, enerji siyasəti və regional inteqrasiya mövzularında tədqiqatları əhatə edir. Topçubaşov Mərkəzi post-müharibə və münaqişə transformasiyası sahəsində də aktiv fəaliyyət göstərir. Belə ki, Mərkəz İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan və Ermənistan siyasi ekspertləri arasında ilk dialoq layihəsinin həmtəşkilatçısı olmuşdur. Münaqişə transformasiyasına dair fəaliyyəti çərçivəsində, Mərkəz həmçinin qadınlar və gənclərin sülh proseslərində iştirakı ilə bağlı bir sıra tədqiqat və layihələr həyata keçirmişdir.

**Bütün müəllif hüquqları qorunur. Bu nəşrin heç bir hissəsi AƏF Azərbaycandan icazə alınmadan kütləvi çapa verilə və axtarış sistemində saxlanıla bilməz.**

**Bu sənədin məzmunu yalnız müəlliflərin məsuliyyətidir. Bu sənəddə əks edilən fikirlərdən heç bir halda AƏF Azərbaycanın və Topçubaşov Mərkəzinin mövqeyini əks etdirmək üçün istifadə edilə bilməz.**

**© Avrasiya Əməkdaşlıq Fondu Azərbaycan, 2024**

**© Topçubaşov Mərkəzi, 2024**

**Redaktorlar**: Rusif Hüseynov, Gülxanım Məmmədova, Şücaət Əhmədzadə

**Tərtibatçı:** Əlibaxış Rəşidzadə

# MÜNDƏRİCAT

Ön söz ........................................................................ 3

İmperiya irsi: müasir Bosniya və Herseqovinanın formalaşmasına Osmanlı və Avstriya-Macarıstan təsiri ........................................................................ 4

Bosniya XX əsrdə: Yuqoslaviya daxilində inkişaf və müharibəyə gedən yol ........................................................................ 6

Müharibə içərisində müharibə: Bosniya müharibəsi və onun yekunları ........................................................................ 9

Bosniyadakı müharibəyə beynəlxalq müdaxilə: dərslər, səhvlər, uğurlar ........................................................................ 11

Deyton sülh müqaviləsi: Bosniya və Herseqovina üçün nə məna kəsb edir? ........................................................................ 15

Liberal sülh və ya dərin bölünmə? Post-Deyton Bosniyasında milli kimlik mübarizəsi ........................................................................ 18

Post-müharibə milli kimliyi necə formalaşır? Etnik yoxsa regional fərq? Etnik fərqliliklər yoxsa manipulyasiya? ........................................................................ 20

Bosniya və Herseqovinada birgəyaşayış: ziddiyətlər və islahat zərurəti ........................................................................ 22

Bosniya və Herseqovinanın "çoxmillətli" siyasi sistemi: etnik iflic ........................................................................ 25

Deyton sülh müqaviləsi və güc bölünməsi: xarici siyasət necə həyata keçirilir? ........................................................................ 27

Post-münaqişə dövründə Bosniya: keçid ədaləti dilemması və institusional problemlər ........................................................................ 30

Keçid ədaləti praktikada: keçmiş necə aşıldı? ........................................................................ 33

# Ön Söz

Bu məqalələr toplusu 27-31 avqust 2024-cü il tarixlərində Bosniya və Herseqovinaya təşkil edilən təhsil səfərində iştirak edən gənclərin səfər zamanı əldə etdikləri təəssüratları, təhlilləri və fikirlərini özündə əks etdirir.

Bosniya və Herseqovina bir tərəfdən öz etno-konfessional harmoniyası, digər tərəfdən isə qanlı müharibə tarixi və barışıq səylərinin mürəkkəb tarixi ilə etno-ərazi münaqişələrinin dərin köklü səbəblərini və potensial həll yollarını anlamağa çalışanlar üçün vacib rol oynayır. Müəlliflər bu məqalələr toplusunda yazıları vasitəsilə münaqişənin müxtəlif aspektlərini araşdırır, keçmişlə bu gün arasında paralellər aparır və ölkənin barışıq və sülhə doğru davam edən yolunda üzləşdiyi çətinliklərə nəzər salırlar.

Müəlliflər yazıları ilə təkcə Bosniya və Herseqovinanın yox, o cümlədən, Balkan regionunun tarixi və siyasi kontekstini və hərbi zorakılıqdan sonra cəmiyyətlərin necə dəyişə biləcəyini xüsusi həssaslıqla təhlil etməklə bu münaqişə irsinə və onun qurbanlarına qarşı dərin məsuliyyət hissi daşıdıqlarını nümayiş etdirirlər.

Bu məqalələr toplusu tənqidi düşüncəni və empatiyanı inkişaf etdirmək üçün lokal öyrənmə təcrübələrinin gücünün əyani göstəricisidir. Müəlliflərin yazıları münaqişələri bəsitləşmiş qəliblər çərçivəsində başa düşməyə meydan oxuyur və qanlı münaqişələr nəticəsində yaralanmış regionlar üçün inklüziv və dinc gələcəyin vacibliyini başa düşməyə kömək edir.

Ümid edirik ki, bu məqalələr toplusu Azərbaycan və Cənubi Qafqazda münaqişə transformasiyası üzrə daha geniş müzakirələrə töhfə verəcək və gələcək nəsillər həm Balkanlarda, həm də onun hüdudlarından kənarda münaqişəni əməkdaşlığa çevirmək yollarını araşdırmağa davam edəcək.

*Avrasiya Əməkdaşlıq Fondu Azərbaycan*

*Topçubaşov Mərkəzi*

# İmperiya İrsi:
# Müasir Bosniya və Herseqovinanın Formalaşmasına Osmanlı və Avstriya-Macarıstan Təsiri

***Hikmət Vəkilov***

Müasir Bosniya və Herseqovinanın formalaşmasında Osmanlı və Avstriya-Macarıstan imperiyalarının müxtəlif idarəçilik modelləri və bürokratik fərqləri həlledici rol oynamışdır. Hər iki imperiyanın Bosniya üzərində xüsusi təsirləri regionun sosial, mədəni və siyasi dinamikasını fərqli formada dəyişdirmişdir. Osmanlı və Avstriya-Macarıstanın idarəçilik üsulları, tətbiq etdikləri qanunlar, təmsilçilik modelləri və yerli xalqla münasibətləri arasında ciddi fərqlər olmuş və bu fərqli yanaşmalar Bosniyanın milli kimliyinin formalaşmasında və sonrakı gərginliklərin yaranmasında xüsusi rol oynamışdır.

Osmanlı dövründə həm Bosniya, həm də Herseqovina əvvəlcə "sancaq", daha sonra "əyalət" adlı inzibati statuslara malik idi. Osmanlı İmperiyasının fərqli dinlərə mənsub olan əhali qruplarını idarə etmək üçün tətbiq etdiyi xüsusi model - "millət sistemi" çərçivəsində müxtəlif dini icmalara geniş muxtariyyət verilir və hər icma öz dini liderləri və qanunları ilə idarə olunurdu. Pravoslavlar, katoliklər və yəhudilər bu muxtariyyətlərə sahib olan əsas icmalardan olsa da, müsəlman əhali dövlət işlərində üstün mövqeyə sahib idi və dövlətin əsas hüquqi sistemi şəriət qanunları ilə uyğunlaşdırılırdı. Osmanlı idarəçiliyi zamanı Bosniya böyük iqtisadi çətinliklər və sosial təbəqələşmə ilə üzləşirdi. Yerli idarəçilik strukturları Osmanlı dövrünün sonlarına doğru mərkəzi hakimiyyətin zəifləməsi ilə daha da güclənmiş, bu isə, öz növbəsində, bir çox əyalətdə üsyanlar və sosial qarışıqlıqlara səbəb olmuşdu.

Osmanlı və İslam tarixi əlaqələri üzrə mütəxəssis Bernar Lyüis (Bernard Lewis), "Yaxın Şərq: son 2000 ilin qısa tarixi" ("The Middle East: A Brief History of the Last 2,000 Years") əsərində Osmanlı idarəetməsi haqqında bu görüşü önə sürmüşdü:

*"Osmanlı İmperiyası geniş torpaqları idarə etmək üçün mərkəzləşdirilmiş bir hakimiyyət yaratsa da, bu imperiyada əsas qüvvə yerli elitanın və icmaların rolu ilə əvəz olunurdu".*

Avstriya-Macarıstan imperiyasının Bosniyaya gəlişi isə tamamilə fərqli bürokratik yanaşma ilə müşayiət olundu. 1878-ci ildə Berlin müqaviləsi ilə Bosniya və Herseqovina hələ də formal olaraq Osmanlı ərazisi kimi qəbul edilsə də, Avstriya-Macarıstan tərəfindən idarə edilməyə başladı. Habsburqlar mərkəzləşdirilmiş bir idarəetmə sistemi yaratmaq məqsədində idi və bu, əsasən regionda modernləşmə siyasətini həyata keçirmək üçün tətbiq olunurdu. Habsburq idarəçiliyi dövründə bürokratik aparatda qeyri-müsəlman əhaliyə daha geniş hüquqlar verilmişdi, dövlət qurumlarında müxtəlif etno-konfessional qruplardan olan şəxslər təmsil olunurdu və yeni inzibati islahatlar həyata keçirilirdi. Osmanlı dövründəki müsəlman elitanın rolu zəifləmiş və onun yerinə Vyanadan idarə olunan daha mərkəzləşdirilmiş bir bürokratik sistem qurulmuşdu. Bu, Bosniya və Herseqovinanın siyasi və iqtisadi strukturunun Avropa modelləri əsasında modernləşdirilməsinə səbəb oldu. Avstriya tarixçisi Otto Bauer

qeyd edir ki, Avstriya-Macarıstan dövründə Bosniyada tətbiq olunan inzibati islahatlar regionu tamamilə yeni siyasi və hüquqi sferaya daxil etdi və bu, əhalinin Avropayönümlü bir mədəniyyətə inteqrasiyasına təkan verdi.

İki imperiyanın idarəetmə fərqləri əhəmiyyətli nəticələrə səbəb oldu. Osmanlı dinlərarası tolerantlıq siyasəti vasitəsilə etnik və dini müxtəlifliyi idarə edirdi, lakin bu modelin bir çox hallarda məzhəbi ziddiyyətləri və gərginlikləri alovlandırdığı da məlumdur. Osmanlı dövründə yerli əhali arasında bəzən ciddi toqquşmalar baş verirdi. Avstriya-Macarıstan modernləşdirmə siyasəti ilə əhalini Avropa siyasi mərkəzlərinə yaxınlaşdırmağa çalışırdı, lakin bu siyasət özlüyündə millətçi hərəkatları stimullaşdırdı və hər etnik qrupun öz kimliyini daha çox vurğulamasına yol açdı. Təsadüfi deyil ki, məhz bu dövrdə Bosniya serbləri özlərini daha çox Serbiyaya bağlı hiss etməyə, xorvatlar isə Xorvatiya ilə əlaqələrini gücləndirməyə başlayırdılar. Etnik millətçilik Avstriya-Macarıstan dövründə daha da gücləndi və bu, regionda dərin gərginliklərə səbəb oldu.

Osmanlı ilə Habsburqların idarəçilik yanaşmalarının fərqli olması onların siyasi, hüquqi və sosial sistemlərinin təzahürlərində də aydın şəkildə görünürdü. Osmanlı dövründə qanunlar əsasən dini şəriətə uyğunlaşdırılmışdı, lakin Avstriya-Macarıstan dövründə Qərb hüquq sistemi tətbiq olunmağa və Bosniyada hüquqi islahatlar həyata keçirilməyə başlanıldı. Bəzi tədqiqatçılar hesab edir ki, Vyananın bu hüquqi islahatları və Avropa yönümlü idarəçilik modelləri Bosniyanın modernləşmə prosesinə təkan vermişdir. İqtisadiyyat üzrə mütəxəssis Qeyl Stoks (Gale Stokes) isə yazır:

*“Avstriya-Macarıstanın müstəmləkəçi idarəetmə yanaşmaları regionda sənaye və infrastrukturun inkişafına səbəb oldu, lakin bu, milli və dini qruplar arasında yeni gərginliklər yaratdı”.*

Beləliklə, Osmanlı və Avstriya-Macarıstanın Bosniya və Herseqovina üzərindəki təsirləri yalnız regionun fiziki məkanında deyil, həm də mədəni və sosial toxumasında dərin izlər buraxdı. Osmanlı dövründə çoxmədəniyyətli icmaların sülh şəraitində birgəyaşayışı vurğulansa da, dini fərqliliklər gərginlik mənbəyi olaraq qalırdı. Avstriya-Macarıstan imperiyası isə daha dünyəvi və mərkəzləşdirilmiş idarəçilik yanaşması tətbiq edərək modernləşmə istiqamətində addımlar atsa da, bu da öz növbəsində etnik fərqlilikləri gücləndirərək gərginliklərin yeni mərhələsinə səbəb oldu.

Fərqli imperial idarəçilik modelləri Bosniyanın milli kimliyi və sosial strukturlarının formalaşmasında mühüm rol oynadı, nəticədə regionda uzun müddət davam edən etnik və siyasi qarşıdurmaların əsasını qoydu. Bosniya və Herseqovinanın tarixi bu imperiya təsirlərinin mürəkkəb toqquşmasından ibarət olub və bu gün də ölkənin kimliyi ilə bağlı müzakirələrdə əks olunmaqdadır.

# Bosniya XX əsrdə:
# Yuqoslaviya Daxilində İnkişaf və Müharibəyə Gedən Yol

***Fidan Muradlı***

*“Burada bütün divarlar ayrılığın simvoludur”.*

*Bir müsəlman boşnak qadın*

Keçmiş Yuqoslaviyanın irs kimi qoyduğu məsələlərdən biri olan etnik fərq problemi 30 ildən çox keçməsinə baxmayaraq, hələ də Bosniya və Herseqovinanın parçalanmasının əsas səbəblərindən biri kimi görünür.

Birinci Dünya Müharibəsinin gətirdiyi siyasi dəyişikliklər Balkanlarda da təsirsiz ötüşmədi. Müasir Bosniya və Herseqovina Serb, Xorvat və Slovenlərin Krallığının tərkibinə qatıldı. Krallığın əvvəlcə 33 vilayətə (oblast) bölünməsi ənənəvi coğrafi sərhədləri dəyişsə də, boşnak siyasətçilərin səyi ilə Osmanlı dövründə indiki Bosniya və Herseqovina ərazilərini əhatə edən 6 sancağın geri qaytarılması ilə ölkənin ənənəvi sərhədləri bərpa olundu.

Bununla belə, 1929-cu ildə Yuqoslaviya adını qəbul etmiş krallıqda Bosniya və Herseqovina daha çox serblər və xorvatlar arasında mübahisə mənbəyi kimi görünür, müsəlmanlar üçün ayrıca etno-siyasi məkana ehtiyac nəzərə alınmırdı.

İkinci Dünya Müharibəsində Yuqoslaviya Krallığı nasist qüvvələrin əlinə keçdikdən sonra indiki Bosniya və Herseqovina ərazisi Ustaşenin[1] başçılıq etdiyi və nasist Almaniyasının marionet rejimi sayılan Müstəqil Xorvat dövlətinə verildi. Öz ideoloji düşmənləri sayılan serbləri, yəhudiləri, romanları və dissident xorvatları hədəf alaraq vəhşiliklər törədən ustaşlar yüz minlərlə serbi qətlə yetirdilər. Cavab olaraq bir çox serblər ilk növbədə müsəlmanları hədəf aldılar və qırğınlar həyata keçirən millətçi çetniklərə[2] qoşuldular. Tezliklə, nasistlərə qarşı mütəşəkkil qüvvə kimi müxtəlif qruplardan ibarət olan və İosip Broz Titonun rəhbərlik etdiyi Milli Azadlıq Ordusu ortaya çıxdı və Müttəfiq qüvvələrdən (ABŞ, Fransa, Birləşmiş Krallıq) dəstək aldı.

Müharibə zamanı 300 mindən çox insanın həlak olduğu Bosniya və Herseqovina Titonun rəhbərliyi altında qurulmuş Yuqoslaviya Sosialist Federativ Respublikasına daxil oldu. Altı respublikadan (Sloveniya, Xorvatiya, Bosniya və Herseqovina, Çernoqoriya, Makedoniya və Serbiya) və Serbiyanın tərkibindəki iki muxtar əyalətdən (Voyvodina və Kosovo) ibarət Yuqoslaviya federasiya şəklində və kommunist dövlət kimi təşkil olunmuşdu.

---

[1] Ustaşlar (ustaşe, ustaşelər) – 1929-1945-ci illər arasında bir təşkilat kimi fəaliyyət göstərən, rəsmi olaraq Ustaş – Xorvat İnqilabi Hərəkatı (xorv. Ustaša-Hrvatski revolucionarni pokret) kimi tanınan xorvat ultranasionalist, etnonasionalist, klerikal hərəkat. Bu təşkilat 1934-cü ildə Yuqoslaviya kralı I Aleksandrın öldürülməsinə yardım etmiş, İkinci Dünya Müharibəsi zamanı nasist Almaniyasının müttəfiqinə çevrilmişdi.

[2] Çetniklər – İkinci Dünya Müharibəsi zamanı Yuqoslaviya ərazisində fəaliyyət göstərmiş serb millətçi hərəkatının üzvləri. Daha çox partizanlar kimi fəaliyyət göstəriblər.

Yuqoslaviyanın müxtəlif etnik qrupları arasında razılığı gücləndirməyə yönəlmiş "qardaşlıq və birlik" siyasəti Tito rejiminin rəsmi ideologiyası idi. Siyasətin məqsədi vahid Yuqoslaviya kimliyini formalaşdırarkən hər bir etnik qrupun unikallığını qorumaqdan ibarət idi. Bu federal təşkilatın məqsədi hər hansı bir etnik qrupun hökmranlığının qarşısını almaq, həmçinin, əhalinin maraqlarını tarazlaşdırmaq idi. Respublikaların sosial və iqtisadi inteqrasiyası Tito hökuməti tərəfindən dəstəklənir, ölkə daxilində əməkdaşlığı təşviq etmək və etnik, regional fərqləri azaltmaq üçün təşəbbüslər irəli sürülürdü.

"Qardaşlıq və birlik" ritorikasına baxmayaraq, kökdə yatan etnik gərginlik və tarixi narazılıqlar davam edirdi. Bu siyasət tez-tez dərin etnik və millətçi problemləri həll etməkdənsə, gizlətdiyinə görə tənqid olunurdu. Federal sistem güc balansını qorumaq məqsədi daşısa da, o tez-tez "mərkəzləşdirilmiş hakimiyyət, yoxsa ərazi muxtariyyəti" mövzusu üstündə mübahisələrə səbəb olurdu. Fərqli respublikalar müxtəlif səviyyələrdə iqtisadi inkişafa və siyasi təsirə malik idi ki, bu da narazılıqla nəticələnirdi.

1970-ci illərdə, Qoşulmama Hərəkatında Titonun rəhbərliyinin təsiri və Yuqoslaviyanın diplomatik korpusunda boşnakların olması səbəbindən güclü Bosniya siyasi elitası yarandı. Camal Biyediç (Džemal Bijedić), Branko Mikuliç (Branko Mikulić) və Hamdiya Pozderaç (Hamdija Pozderac) kimi siyasətçilər Yuqoslaviyaya xidmət göstərsələr də, Bosniya və Herseqovinanın suverenliyini müdafiə edir və qoruyurdular. Bu gün onların işi Bosniyanın müstəqilliyinə doğru ilk addımlardan biri kimi qiymətləndirilir.

Bununla belə, federasiyanın qürubu artan millətçi atmosferdən xilas ola bilmədi. Tolerantlıq anlayışı kommunizmin süqutu və Yuqoslaviyanın parçalanmasının başlaması ilə öz gücünü itirməyə başladı və bu, cəmiyyətdəki millətçi fraksiyaların daha çox nüfuz qazanmasına imkan verdi. Titonun ölümündən sonra birləşdirici liderin olmaması və etnik millətçiliyin dirçəlməsi 1990-cı illərin əvvəllərində Yuqoslaviyanın parçalanmasına və sonrakı münaqişələrə səbəb oldu.

Əvvəlcə, 1991-ci ildə Slovenia və Xorvatiya Yuqoslav Sovet Sosialist Federasiyasından ayrılaraq öz müstəqilliyini elan etdi. Bundan sonrakı proseslər isə tamamilə nəzarətdən çıxdı, Xorvat Müstəqillik müharibəsi (1991-1995), Bosniya müharibəsi (1992-1995) və Kosovo müharibəsi (1998-1999) kimi qanlı savaşlara səbəb oldu.

1992-ci ilin martında Bosniya və Herseqovina Yuqoslaviyadan ayrılaraq öz müstəqilliyini elan etdi. Bu addım boşnak, serb və xorvatlar kimi etno-konfessional qruplardan ibarət ölkədə gərginliyi artırdı. Yuqoslaviya Milli Ordusu, yerli serb silahlı dəstələri və Bosniya serb ordusunun 1992-ci ilin aprelində boşnak və xorvatların yaşadıqları ərazilərə hücumu münaqişənin başlamasına səbəb oldu. Bosniya və Herseqovinanın müstəqilliyi ideyasını rədd edən serb qüvvələrin mübarizəsinin pik nöqtəsi ölkənin paytaxtı Sarayevonu mühasirəyə alması oldu. Təxminən dörd il davam edən mühasirə geniş dağıntı və insan itkisinə səbəb olub.

Bosniya serb qüvvələri tərəfindən həyata keçirilən fəaliyyətlərə qeyri-serblərə qarşı etnik təmizləmə və ya qırğın və köçürmə əməliyyatlarını aid etmək olar. Böhran dərinləşdikcə beynəlxalq ictimaiyyətin, o cümlədən BMT və NATO-nun müdaxiləsi artdı.

BMT silah embarqolarını tətbiq edib təhlükəsiz zonalar yaratsa da indiyədək qırğınları dayandırmaq üçün kifayət qədər səy göstərməməkdə günahlandırılır.

Bosniya serblər qüvvələri tərəfindən törədilən, beynəlxalq ictimaiyyət tərəfindən soyqırımı adlandırılan və 8000-dən çox boşnakın (aralarında 18 yaşa çatmayan uşaqların da daxil olduğu) qətlə yetirildiyi Srebrenitsa qətliamı münaqişənin ən qara səhifələrindən biridir. Bu qırğın beynəlxalq müdaxilə üçün katalizator və tarixdə dönüş anı oldu. NATO Srebrenitsa qətliamına və artan zorakılığa reaksiya olaraq 1995-ci ilin avqustunda Bosniya serblərinin mövqelərinə hava zərbələri endirdi. Bu müdaxilə, qismən, sülh razılaşması üçün təzyiq idi.

Bosniya və Herseqovina böyük itkilər, dağılmış infrastruktur və əhalinin məcburi köçü kimi məsələlərlə müharibədən ciddi ziyan gördü. Beynəlxalq ictimaiyyət bərpa səylərinə töhfə versə də, etno-konfessional qrupların barışması hələ də çətin və davamlılıq tələb edən prosesdir.

# Müharibə İçərisində Müharibə:
# Bosniya Müharibəsi və Onun Yekunları

***Əsmər Əliyeva***

Balkan yarımadasında yerləşən Bosniya və Herseqovina Şərqi Avropa ölkələri arasında müstəqilliyinə ən çətin yollarla çatan dövlətlərdən biri hesab olunur.

Yuqoslaviyanın parçalanması nəticəsində ortaya çıxan ən qanlı münaqişələrdən biri onun müttəfiq respublikalarından biri sayılan Bosniya və Herseqovinada başlayan və faktiki olaraq üç ildən çox davam edən müharibə olmuşdur. Məlum olduğu kimi bu münaqişənin aktiv müharibə fazasına keçməsinə səbəb olan ən böyük faktor üç etno-konfessional qrup arasında özünü göstərən fərqliliklər olmuşdur. 1990-cı illərin əvvəllərində bosniyalı müsəlmanların - boşnakların, katolik xorvatların və pravoslav serblərin ayrı-ayrılıqda təşkilatlanması və bir-birinə qarşı mübarizəsi Bosniyanı qanlı döyüş teatrına çevirmişdi.

Soyuq müharibənin sonlarına doğru kommunist bloku ölkələri üçün müstəqillik artıq daha real və əlçatan olmuş, Sovet İttifaqının kiçik modeli kimi də qiymətləndirilən Yuqoslaviya da bu böhranlı vəziyyətdən can qurtara bilməmişdi. Lakin tərkibində bir çox etnik və dini qrupu birləşdirən bu rejimin disinteqrasiyası heç də asan olmamış, əksinə qanlı münaqişələrlə müşayiət olunmuşdur. Sloveniya və Xorvatiyanın müstəqilliklərini elan etməsi ilə başlayan bu proses Bosniyada özünü ən şiddətli formada göstərmişdir.

Bosniya və Herseqovinanın etno-konfessional tərkibinin müxtəlifliyi münaqişə üçün zəmin hazırlamışdı. Belə ki, ümumi əhalinin 44 faizini müsəlmanlar (boşnaklar), 31 faizini serblər, digər 17 faizini isə xorvatlar təşkil edirdilər. Bu qrupların uzun illər sülh içində birgə yaşamasına baxmayaraq, əsrin sonlarına doğru yüksələn millətçilik dalğası və onları bir arada tutan birliyin dağılması qanlı ssenariyə səbəb olmuşdu.

Təbii ki, vəziyyətin bu cür gərginləşməsində ərazi iddialarının ortaya çıxmasını vurğulamaq lazımdır. Yuqoslaviya müharibələri içərisində müharibə kimi ortaya çıxan Bosniya münaqişəsi özü də çoxqatlı olmuş: müsəlmanlar ilə serblər, müsəlmanlar ilə xorvatlar və serblər ilə xorvatlar arasındakı 3 fərqli savaş eyni zamanda baş tutmuşdur. Müsəlman liderlərin öz aralarındakı ziddiyyətləri də bu kontekstə əlavə etsək, daha mürəkkəb mənzərə əmələ gələcək.

Bütün bu proseslər davam edərkən beynəlxalq təşkilatların və böyük dövlətlərin uzun müddət aktiv şəkildə müdaxilə etməməsi, hətta bir çox hallarda səssiz qalması hadisələrin daha da radikal bir hal almasına səbəb olmuşdur. Ancaq 1995-ci ildə NATO-nun silahlı müdaxiləsindən sonra tərəflər sülh danışıqlarına başlamış və Deyton sülh müqaviləsi ilə müharibə sonlanmışdır.

Lakin müharibənin bitməyi ilə problemlər də dərhal yekunlaşmadı. Üç il ərzində bir-birinə qatı düşmən kimi baxmış, hər cür zorakılığa əl atmış üç qrupun nümayəndələri yenidən

birgə yaşamağı öyrənməyə başladılar. Məhz bu səbəbdən də Bosniya və Herseqovinada sülh, barışıq, birgəyaşayış və yeni dövlətçiliyin qurulması prosesi heç də hamar getmədi.

Müharibənin ən ağır nəticələrindən biri milli inteqrasiya məsələsinin daha da çətinləşməsidir. Məlum olduğu kimi, Deyton müqaviləsi ilə fərqli bir idarəetmə konsepsiyası yarandı: əsasən boşnakların və xorvatların yaşadığı əraziləri əhatə edən Bosniya və Herseqovina Federasiyası və əksəriyyəti serblərin yaşadığı ərazilərin daxil olduğu Serb Respublikası (Republika Srpska).

Müharibənin iqtisadi fəsadları də ağır olmuşdur. 100.000-dən çox şəxsin ölməsi və bir o qədər də insanın müxtəlif xəsarətlər alması xeyli insan resursunun itirilməsi deməkdir. Müharibə nəticəsində yollar, iş yerləri, təhsil və dini mərkəzlər dağıdılmış və daha sonra effektiv bir şəkildə bərpa olunmamışdır.

Müxtəlif beynəlxalq təşkilatların və yerli qeyri-hökumət təşkilatlarının səylərinə baxmayaraq, Bosniya və Herseqovinada milli kimlik və tarixə ümumi konsensus əsasında baxış kimi məsələlərə hələ də nail olunmayıb. Bu da onu göstərir ki, problemlərə daha başqa aspektdən yanaşmaq və daha mütərəqqi addımlar atılmasına ehtiyac var.

# Bosniyadakı Müharibəyə Beynəlxalq Müdaxilə: Dərslər, Səhvlər, Uğurlar

*Fərid Nağızadə*

Bosniya və Herseqovinadakı müharibə Yuqoslaviyanın parçalanması ilə müşayiət olunan münaqişələrin ən şiddətlisi idi. Bu məqalədə Deyton sülh sazişinin imzalanmasına qədər olan gedişatda beynəlxalq təşkilatların roluna nəzər yetirəcəyik, çünki, hələ də Sarayevo və Srebrenitsa, tarixi ədəbiyyatda və beynəlxalq sistemdə, zorakı münaqişələrin qarşısının alınması və dayandırılmasında beynəlxalq uğursuzluğun simvolu olaraq qalır. Bu hadisələrə Avropanın və BMT-nin "alçaldılmasına" və orda fəaliyyət göstərən sülhməramlı qüvvə olan UNPROFOR-un (Birləşmiş Millətlər Mühafizə Qüvvələri) uğursuzluğuna abidə kimi baxılır. Digər tərəfdən, 1995-ci il hərbi müdaxiləsi, Deyton razılaşması və NATO-nun başçılıq etdiyi İcra Qüvvələri (IFOR) Amerika rəhbərliyi altında hərbi müdaxilə potensialının xilasedici nümunələri kimi də qəbul edilir. Ona görə də bu müharibəyə beynəlxalq təşkilatların müdaxiləsi mövzusuna bir neçə başlıqda toxunacağıq.

*Beynəlxalq aktorların rolu*

Hadisələrin başlanğıcında Yuqoslaviyadakı böhrana beynəlxalq reaksiyalar ümumiyyətlə reaktiv və qeyri-bərabər idi. Avropa dövlətləri bir-biri ilə, Avropa isə ABŞ-la çarpaz məqsədlərlə hərəkət edirdi. Buna görə də müdaxilə planı olaraq BMT və NATO kimi beynəlxalq təşkilatlara ziddiyyətli mandatlar verildi və bir-birinin fəaliyyətinə mane oldular. Hətta onlar birgə fəaliyyət göstərə bildikləri halda belə, beynəlxalq ictimaiyyətin ixtiyarında olan vasitələr zəif əlaqələndirildiyinə görə bu baş tutmadı ya da faydasız oldu. Bununla da, hadisələrdəki tərəflərin tanınma ehtimalı Almaniya və onun avropalı tərəfdaşları arasındakı fikir və maraq fərqləri səbəbilə puça çevrildi. Digər tərəfdən, müharibənin qarşısını tamamilə ala biləcək Lissabon sazişi və Vans-Ouen (Vance-Owen) planı kimi cəhdlər Amerikanın mənfi siqnalları ilə kəskin şəkildə pozuldu. Üstəlik, BMT-nin sülhməramlı qüvvəsi məhdud mandatlı qoşun təmin etmək istəyənlərlə tam mandat istəyənlər arasında ziddiyyətlər səbəbindən olduqca sarsıldı. Nəticədə hərbi müdaxilə baş verəndə siyasi tənzimləmə cəhdləri ilə əlaqəsi tamamilə kəsildi.

*Karrinqton-Kutileyro (Carrington-Cutileiro) Planı: qarışıq siqnallar və müharibə*

Yuqoslaviya dörd müharibə nəticəsində tarixin yaddaşına qovuşdu: Sloveniya (1991), Xorvatiya (1991-1995), Bosniya (1992-1995) və Kosovo (1998-1999). Bunlardan Bosniyadakı müharibə açıq-aşkar ən qanlısı idi və orada digərlərinin cəmindən üç dəfə çox insan öldürülmüşdü.

Mövcud vəziyyətin həlli ilə bağlı Avropa dövlətləri portuqaliyalı diplomat Xose Kutileyronun (José Cutileiro) sədrliyi ilə sülh konfransı çağırdılar və bu konfransda irəliləyiş olduğu görünürdü. Karrinqton-Kutileyro (Carrington-Cutileiro) Sülh Planı sonrakı dörd sülh təklifi üçün əsas model yaratdı. Bu, konsosiativ təklif idi: Bosniya və Herseqovina sərhədlərində dəyişiklik edilmədən müstəqil olacaq; ölkə hər birində bu və ya digər etnik-dini icmaların üstünlük təşkil etdiyi kantonlara (Bosniya və Herseqovinada ərazi vahidləri)

bölünəcəkdi və səlahiyyətləri məhdud mərkəzi hökumət vasitəsilə üç icma arasında güc bölgüsünü nəzərdə tuturdu. Bosniya və Herseqovinanın müstəqil olması, Yuqoslaviyanın tərkibində qalması və ya bölünməsi ilə bağlı razılaşma olmadıqda və hətta bu məsələlərin nəzərdən keçirilməsi üçün ümumi qəbul edilmiş mexanizm olmadığı üçün bu plana əməl edilmədi və zorakılıq getdikcə alovlandı.

*UNPROFOR yerləşdirilməsi və Vance-Ouen (Vance-Owen) Sülh Planının təklifi*

Karrinqton-Kutileyro (Carrington-Cutileiro) planının iflası və Bosniyada genişmiqyaslı müharibə mühitinin yaranması ilə BMT böyük humanitar səylərə başladı. Bu, dünyanın ən böyük humanitar əməliyyatı oldu və mühasirəyə alınmış Sarayevo şəhərinə 1948-1949-cu illərdə Berlin hava daşınmasından sonra ən böyük aviadaşıma təchiz edildi.

Ərazidəki çaxnaşmaya qarşı humanitar əməliyyatı qorumaq üçün BMT Təhlükəsizlik Şurası sülhməramlı fəaliyyətini Xorvatiyadan Bosniyaya qədər genişləndirdi. 1992-ci ilin avqustunda Təhlükəsizlik Şurasının 770 saylı qətnaməsi UNPROFOR-a Sarayevoya və başqa yerlərə humanitar yardımın çatdırılmasını asanlaşdırmaq üçün "bütün zəruri tədbirləri" görməyə mandat verdi. Bir ay sonra, 776 saylı qətnamə, ölkənin böyük bir hissəsində yardım karvanlarına dəstək vermək üçün qüvvələrin genişləndirilməsinə icazə verdi. Qüvvələr getdikcə artdı və nəticədə 39.000 nəfərə çatdı.

Vans-Ouen planı Karrinqton-Kutileiro planı ilə oxşar xüsusiyyətdə idi. Nəticədə liberal Qərb, xüsusən də ABŞ bu planı "mənəvi sakitləşdirmədə" və Bosniyanı "oymaqda" ittiham edərək, serb liderlər Slobodan Miloşeviç və Radovan Karaçiçlə danışıqlar apardığına görə pislədi. Bununla da bu təklif də sıradan çıxdı.

*Birgə fəaliyyət planı*

Birgə fəaliyyət planı onu hazırlayanlara görə ciddi diplomatik kompromis idi, ancaq mövcud vəziyyəti daha da pisləşdirdi. Onun əsas ideyası serblər tərəfindən mühasirəyə alınan müsəlmanların yaşadığı altı ərazi – Bihaç, Qorajde, Tuzla, Sarayevo, Srebrenitsa və Şepa üçün "təhlükəsiz ərazilərin" yaradılması idi. UNPROFOR bu əraziləri qorumaq üçün mandata ehtiyac duyurdu. Buna görə də BMT Katibliyi qəti şəkildə etiraz edərək, UNPROFOR-un bunun üçün təchiz olunmadığını bildirdi. O, yardım karvanlarını müşayiət etmək, Sarayevo hava limanını tənzimləmək və cəbhə xəttlərini izləmək üçün yerləşdirildiyini və güc tətbiq etməklə müharibə aparmadığını nəzərə çatdırdı. Nəticə etibarilə, tərəflərin bu təklifə əməl etməməsi bunun da çarə olmadığını göstərdi.

Nəticədə İqman dağındakı BMT artilleriyası 1993-cü ildə serblərin BMT-yə verdiyi torpaqdan atəş açdı. UNPROFOR Sarayevo ətrafında serb artilleriyasını və hava hücumundan müdafiəsini bombaladı, serblərin BMT-yə və ya bosniyalı mülki şəxslərə cavab zərbələri endirməsinə mane oldu və NATO təyyarələri ilə müdaxilə edildi. Bununla da Sarayevonun üç illik mühasirəsi sona çatdı.

Sentyabrın sonunda onlar 1992-ci ildən bəri ələ keçirdikləri torpaqların çoxunu itirmiş və dağılmaq ərəfəsində idilər. Oktyabrın əvvəlində serblərin qalası olan Banya Luka Xorvatiya ordusunun əlinə keçmişdi.

*Qüsurlu "centlmen" razılaşması - Deyton*

Bununla da sülh danışıqları 1995-ci il noyabrın 1-də, Sarayevo mühasirəsi başa çatdıqdan iki ay sonra başladı. Razılaşma Riçard Holbruk (Richard Holbrooke) tərəfindən Ohayo ştatının Deyton şəhərindəki Rayt-Patterson Hava Bazasında üç həftəlik müddət ərzində müzakirə edildi. Holbruk demək olar ki, müstəsna nəzarəti ələ keçirdi: BMT Xorvatiyanın Şərqi Slavoniya bölgəsi üzrə tərəflərin danışıqları istisna olmaqla, xaric edildi və görüşdə Təmas Qrupu ölkələrinin nümayəndələri iştirak edirdilər.

Üç nümayəndə heyətinə Bosniya, Xorvatiya və Serbiyanın prezidentləri, 1991 və 1992-ci illərdə öz icmalarını müharibəyə aparan eyni üç lider başçılıq edirdi. Həmçinin, Xorvatiya və Serbiya prezidentlərinin səlahiyyəti altında Bosniya xorvatları və Bosniya serbləri liderləri də iştirak edirdilər.

Nəticədə Bosniya və Herseqovinada Sülh üzrə Ümumi Çərçivə Sazişi (Deyton Sazişi) qısa bir bölmə və 11 əlavə formasında hazırlandı. Əlavə 1A, 1B və 2 hərbi məsələləri, regional sabitləşməni və Bosniya və Herseqovina Federasiyasını Serb Respublikasından (Republika Srpska) ayıran "Müəssisələrarası Sərhəd Xəttinin" yaradılmasını əhatə edir. Hərbi əlavələr, ABŞ-ın daxili razılaşmasının bir hissəsi olaraq, yalnız bir il müddətinə NATO-nun rəhbərlik etdiyi İcra Qüvvələrinin (IFOR) yerləşdirilməsini tələb edirdi.

Deyton müqaviləsi ilk növbədə müharibəni başlatmış eyni üç etno-konfessional elita arasında elit razılaşma idi və bu üç təbəqənin nümayəndəsi tərəfindən imzalandı.

Nəticə etibarilə bu hadisədən bir neçə vacib dərs götürmək olar. Birincisi, NATO-nun hərbi gücü mülki əməliyyatı dəstəkləmək üçün mühüm idi. Buna misal olaraq, IFOR komandirləri əvvəlcə BMT və ATƏT-ə dəstək verməkdən və ya koordinasiya etməkdən çəkinirdilər, onların vəzifəsinin hərbi xidmət olduğunu iddia edirdilər. Tezliklə aydın oldu ki, bir çox mülki islahatlar hərbi dəstək olmadan baş tuta bilməz. Bundan əlavə, qaçqınların və köçkünlərin məskunlaşdırılmasından tutmuş iqtisadiyyatın sürətli işə salınmasına qədər mühüm vəzifələr sülh şərtlərinə əməl etməyə məcbur etmək və istənilən potensial zorakılığı yatırmaq üçün hərbi güc tələb edirdi. Buna görə də yenidənqurma və reabilitasiya effektiv təhlükəsizlik və müəyyən güc tətbiqi olmadan irəli gedə bilməzdi.

İkincisi, müharibə dövrünün aparıcı qüvvələrinə siyasət və iqtisadiyyata nəzarət etmək imkanı vermək islahat perspektivi üçün zərərli idi. Seçkilər kifayət qədər tez keçirilsə də (1996), hökumət üçün müəyyən legitimlik təmin etmək üçün, kampaniyalar aparmaq və platformalar hazırlamaq qabiliyyətinə malik olan namizədlərin əksəriyyəti müharibəni aparan eyni millətçi partiyalardan gəlmişdi. Seçkilər sadəcə olaraq onların eksklüziv mesajlarını təsdiqlədi, buna görə də onları yeni siyasi institutlar kimi tanıdı, eyni zamanda islahatların həyata keçirilməsi və ya daha mötədil siyasi çevrənin inkişafı üçün heç bir vasitə təqdim etmədi.

Sonda isə hal-hazırda aşkar olan, lakin heç vaxt düzəldilməyən məsələ qurumlar arasında koordinasiyanın olmaması idi. Bosniyada fəaliyyət göstərən bütün təşkilatlar eyni məqsədi paylaşsalar da, nadir hallarda bir-biri ilə məsləhətləşir və ya koordinasiya edirdilər.

Onların səyləri rəqabətli idi, ən yaxşı halda başqalarının səylərini təkrarlayır və ya ən pis halda səmərəsiz şəkildə işləyirdi. Hər biri öz qərargahına hesabat verirdi və öz planını və gündəliyini qoruyurdu. Bu çətinlik Balkanlarda və başqa yerlərdə tez-tez qeyd olunsa da, beynəlxalq müdaxilələrin mərkəzi problemlərindən biri olaraq qalır.

# Deyton Sülh Müqaviləsi:
# Bosniya və Herseqovina üçün Nə Məna Kəsb Edir?

***Ayan Fərmanova***

*“Artıq müharibə olmadığı üçün xoşbəxtəm, lakin Deyton razılaşması haqqında bunu deyə bilməyəcəm”.*

*Boşnak bir dostum*

1995-ci ildə ABŞ-nin Deyton şəhərində Bosniya və Herseqovina prezidenti Aliya İzetbeqoviç, Yuqoslaviya prezidenti Slobodan Miloşeviç və Xorvatiya prezidenti Franyo Tucman bir yerə gəldi. Onların ABŞ, Almaniya, Avropa İttifaqı, Böyük Britaniya, Fransa və Rusiya rəsmi şəxslərinin şahidliyi ilə imzaladığı müqavilə Bosniya müharibəsinə son qoydu.

1991-1995-ci illərdə hazırkı Bosniya və Herseqovina ərazisində çox qarışıq vəziyyət hökm sürürdü. Əvvəlki federasiyanın süqutu ilə əmələ gəlmiş Yuqoslaviya dövlətinə (Serbiya və Çernoqoriya İttifaqına) qoşulduqlarını elan edən serblər, Xorvatiya ilə birləşmək istəyən xorvatlar və bu qarışıq vəziyyətin içində öz varlıqlarını davam etdirməyə çalışan müsəlman boşnaklar arasında davam edən qarşıdurmalar dörd il davam edən qanlı münaqişəyə səbəb oldu. Bu illər ərzində Bosniya və Herseqovinanın bir çox yerində xeyli faciələr yaşansa da, onlardan ən böyüyü Srebrenitsada baş tutmuşdu.

*“Mən sadə bir əsgər idim və qərarvermə prosesində iştirakım olmayıb”*

*- Srebrenitsa Memorialına gəlmiş 80 yaşlı serb əsgər*




***Şəkil 1. Srebrenistada memorial daş***

Ən mərhəmətli, ən şəfqətli
Allahın adı ilə
Biz Uca Allaha dua edirik,
Narahatlıq ümidə çevrilsin!
İntiqam ədalətə çevrilsin!
Anaların göz yaşları duaya çevrilsin,
Srebrenitsa bir daha olmayacaq,
Heç kimə və heç yerə!

Birlikdə məktəbə gedən, dostluq edən, qonşuluqda yaşayanlar artıq verilən əmrlərə uyğun olaraq düşmənə çevrilmişdilər. Yaşanmış hadisələr nə qədər sadə vətəndaşlardan asılı deyildisə, həmçinin Deyton razılaşması da tərəflərin iradəsinə əsaslanmırdı. Qanlı münaqişə davam etməsə də, heç bir tərəf xeyli müddət keçməsinə baxmayaraq hələ də Deyton müqaviləsindən razı deyil. Bosniya serbləri Bosniya və Herseqovinayaya inteqrasiya etsələr də, müstəqil dövlətlərini əldə edə bilmədilər. Çoxluq təşkil edən boşnaklar arzusunda olduqları, səs çoxluğu ilə idarə olunan unitar dövlət yarada bilmədilər və federal Bosniya ilə kifayətlənməli oldular. Xorvatlar da ümid etdikləri siyasi qurumu ala bilmədilər, yalnız federasiyanın bəzi kantonlarına[3] nəzarət ilə kifayətlənməli oldular.

Bu razılaşmadan ilə Bosniya və Herseqovina iki hissədən ibarət konfederasiyaya çevrildi: buraya on kantondan ibarət olan Bosniya və Herseqovina Federasiyası və Serb Respublikası daxil oldu. Hazırda Bosniya və Herseqovina serb, xorvat və boşnak olmaqla üç etno-konfessional qrupdan seçilmiş prezidentlərdən ibarət rəyasət heyəti tərəfindən idarə olunur. 4 il və ya 48 ay müddətinə seçilən prezidentlər rotasiyası prinsipi əsasında hər 8 aydan bir olmaqla bu rəyasət heyətinə sədrlik edirlər. Qərarların qəbulu yekdillik tələb edir. Lakin siyasi sistemin mürəkkəbliyi üç prezidentin razılaşmasını bir o qədər də çətin edir. Siyasi idarəçilik sisteminin mürəkkəbliyi burada bitmir. Bu strukturun ən yuxarısında ABŞ və Avropa İttifaqı tərəfindən təyin olunan Ali Nümayəndə dayanır. Qeyri-bosniyalı olan və Aİ-ni təmsil edən bu şəxs Bosniya və Herseqovinada bütün tərəflər üçün məcburi olan qanunlar qəbul edə və səlahiyyətli şəxsləri vəzifəsindən azad edə bilər.

Müşahidələrə əsasən onu demək mümkündür ki, hazırkı vəziyyət sülh və sabitlik kimi xarakterizə olunsa da, bu özlüyündə kövrək sülhdür. Hər üç tərəfin də yaranmış vəziyyətdən narazı olmaq üçün özlərincə səbəbləri və gələcək barədə müxtəlif istəkləri var.

Bosniya və Herseqovinanın iki subyektindən biri olan Serb Respublikasının prezidenti Milorad Dodikin fikirlərinə görə, serblərin konfederasiyadan ayrılması daha yaxşı olardı. Xorvatlar Xorvatiyaya qoşular, serblər və boşnaklar da hərəsi öz dövlətlərinə sahib olardılar.

Bosniya və Herseqovinadakı Xorvatiya Demokratik İttifaqının prezidenti Draqan Coviç isə üç xalqdan ibarət iki subyekt yaratmağın əvvəldən problemli fikir olduğunu və ölkənin üç federal vahiddən ibarət federasiya şəklində yaradılmalı olduğunu dilə gətirir.

Dövlət rəsmilərinin çıxışlarından da göründüyü kimi, Deytonla birgə gələn hazırki idarəetmə forması onları qane etmir. Saziş Bosniya və Herseqovinanın siyasi bölgüsünü və mövcud hökumət strukturunu yaratdı. O dövrdə silahlı münaqişənin qarşısını almağın yeganə yolu kimi bu razılaşma təklif edilmişdi. Həmin razılaşma problemləri həll etməyə deyil, davam etməkdə olan qızğın müharibəni dayandımağa fokuslanmışdı. Lakin göründüyü kimi, sözügedən razılaşmadan sonra ölkədə siyasi idarəetmə forması mürəkkəb hal aldı. Günümüzdə həm dövlət səviyyəsində, həm də xalq arasında davam edən narazılıqların səbəbi olan Deytonun yeganə uğuru müharibəni dayandırması və regionda yeni müharibələrin olmasının qarşısını alması idi.

[3] Kantonlar - Bosniya və Herseqovina Federasiyasındakı ərazi vahidləri.

*Bəs başqa həll yolu tapıla bilərdimi?*

Hər zaman daha əlverişli yol tapmaq mümkündür. Bu fikri bu gün irəli sürmək asandır, lakin dövrün tələbinə, regionda maraqlı tərəflərin təkliflərinə uyğun olan məhz bu sülh müqaviləsi idi. Keçmiş razılaşmanı tənqid etmək əvəzinə gələcək üçün hazırda bu razılaşmanın yaratdığı narazılıqları ortadan qaldırmaq üçün yeni yol təklif etmək daha məqsədə uyğun olar. Buna baxmayaraq, regiondakı maraqların müxtəlifliyinin yeni münaqişələrə yol açmayacağına heç kim söz verə bilməz.

Hazırda sazişin nə məna kəsb etdiyinə gəldikdə isə, demək olar ki, həm yerli qruplar, həm də dövlət rəsmiləri tərəfindən Deytonun müharibəni, məhvi, nifrət partlamasını və intiqam arzusunu dayandırdıdığı qəbul edilir. Buna baxmayaraq, siyasi müzakirələri izləyən cəmiyyət Deytonun yenilənməsini tələb edənlər və Deytonu azadlığı məhdudlaşdıran bir razılaşma kimi görənlər arasında qalmış vəziyyətdədir.

# Liberal Sülh və ya Dərin Bölünmə?

# Post-Deyton Bosniyasında Milli Kimlik Mübarizəsi

***Fatimə Dadaşova***

“Demokratik proseslər Bosniyadakı etnik bölünməni dərinləşdirdi”- deyən bosniyalı tanışım 1992-1995-ci illərdəki Bosniya müharibəsinə son qoyan Deyton sülh sazişinin mürəkkəb mirasını müzakirə etdiyimiz söhbətimiz zamanı bildirmişdi. Saziş Bosniya və Herseqovinada sülhə nail olsa da, onun geridə qoyduğu ictimai-siyasi mənzərə etnik və dini zəmində dərin parçalanmalarla yadda qalıb. Liberal sülh dəyərlərinə - demokratiya, insan haqları və qanunun aliliyinə əsaslanmasına baxmayaraq, nəticədə yaranan vəziyyət müsəlman boşnaklar, xorvatlar və serblər arasında ayrılıqları qoruyub saxlamış və bəzi hallarda möhkəmləndirmişdir.

Liberal sülh anlayışı tez-tez dayanıqlı sülhə və demokratik idarəetmənin qurulmasına aparan yol kimi dünyada qəbul edilir. Bosniyada isə bu prinsiplərin tətbiqi gözlənilməz nəticələrə səbəb olmuşdur. Liberal ideyalar bütün etnik qrupların hüquqlarını müdafiə etmək məqsədi daşıyarkən, onları birləşdirmək əvəzinə etnik qruplar arasındakı parçalanmaları gücləndirən bir sistemin meydana çıxmasına səbəb olmuşdur. Bunun bariz nümunəsi Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) “Bir dam altında iki məktəb” təşəbbüsüdür.

Müharibədən sonrakı təhsilin yenidən qurulması səylərinin bir hissəsi olaraq təqdim edilən boşnak və xorvat uşaqlarının eyni binada lakin fərqli korpuslarda və ya fərqli saatlarda getməsi qanunu iki etnik qrup arasındakı stereotipləri gücləndirmədən başqa heç bir fayda vermədiyi görülür. Bu məktəblərdən birinə daxil olanda seqreqasiyanın erkən yaşlarda necə başladığı dərhal aydın olur. Boşnak və xorvat uşaqlar eyni binaya daxil olurlar, günün müxtəlif vaxtlarında dərslərə gedirlər və ya tamamilə ayrı otaqlarda təhsil alırlar. Hər qrup öz dilində olan dərslərdə iştirak edir və onların etnik narativlərinə uyğun gələn tarixin interpretasiyasını öyrənirlər.

Bu siyasət bu uşaqların bir-birindən təcrid olunmuş şəkildə böyüməsini və bilmədən seqreqasiya nümunələrini və stereotipləri davam etdirməsini təmin edir. Stereotiplər və digər etnik mühitdə təcrid olunacağını düşünmə uşaqları universitetdə belə sadəcə öz etnik qruplarıyla təhsillərini davam etdirməyə vadar edir. İllər keçir, bu uşaqlar Bosniyadakı digər etnik mənsubiyyətlərdən olanlarla çox az paylaşılan təcrübəyə sahib olur və vahid milli kimlik olmadan yetkinlik yaşına çatırlar.

Bosniya boyu səyahətlərim zamanı bu ayrılığın təkcə məktəblərdə deyil, bütün cəmiyyətdə göründüyünə şahidlik edə bildim. Bölünmə boşnaklar, xorvatlar və serblərin əsasən paralel mövcudluqlarını davam etdirdiyi gündəlik həyatlarına qədər uzanır. Eyni ölkənin vətəndaşları olmalarına baxmayaraq, nəinki bu icmalar arasında, həmçinin elə boşnaklar daxilində da vahid Bosniya kimliyi anlayışı mövcud deyil. Sarayevoda özünü hər şeydən əvvəl slavyan kimi təsvir edən bir nəfər bosniyalı ilə qarşılaşdım ki, onun mili kimliyi

regiona nüfuz edən daha geniş etnik şüura əsaslanırdı. Digər tərəfdən, Herseqovinada yaşayan bir boşnak özünü Sarayevodakı bosniyalılardan daha çox Herseqovinada yaşayan xorvatlara bağlı hiss etdiyini açıqlamışdı. Banya-Lukada bir etnik serbdən onun milli kimliyini soruşduqda isə onun cavabı belə olmuşdu: “Biz özümüzü bosniya və herseqovinalı kimi görmürük, lakin bu reallığın fərqindəyik”.

Coğrafi, dini və etnik fərqliliklərin üçbucağında Bosniya və Herseqovinada yaşayan bu üç etno-konfessional qrup kollektiv milli kimliklərini təyin edə bilmirdilər. Reallıqda isə boşnak, xorvat və serbi dindən ayrı çox az şey fərqləndirirdi. Milli rəmzlər ölkənin parçalanmış kimliyini daha da nümayiş etdirirdi. Serb Respublikasında bu qurumun və Serbiyanın, digər ərazilərdə isə, əgər boşnaklar çoxluq təşkil edirdisə, Bosniyanın və xorvatlar əksəriyyət idisə, Xorvatiyanın və ya Herseqovinanın bayraqlarını daha çox müşahidə etmək mümkündü.

Deyton sazişi müharibəni bitirmək üçün diplomatik uğur kimi elan edilsə də, təməlləri etnik ayrılma və ərazi muxtariyyəti üzərində qurulmuş bir dövlət yaratdı. Onun bir çox cəhətdən vahid milli kimliyin inkişafına mane olduğu sezilir. Bərabər təmsilçiliyi təmin etməyə və növbəti müharibənin baş verməsinin qarşısını almağa çalışarkən, saziş eyni zamanda etnik bölünməni saxladı və Bosniya və Herseqovinanı əbədi milli kimlik böhranı vəziyyətinə saldı. Fərdi və qrup hüquqlarını qorumaq üçün göstərilən bütün səylər, beynəlxalq ictimaiyyət tərəfindən həyata keçirilən demokratik proseslər etnik parçalanmaların institusionallaşdığı bir ölkə ilə nəticələnmişdir. Deytonun yaratdığı sülh davam edərkən, belə bir sual ortaya çıxır: həqiqətən, Bosniya və Herseqovina nə vaxtsa belə dərindən parçalanmış sistemdən çıxa biləcəkmi?

Bölünmüş sinif otaqlarından parçalanmış milli şüura qədər bu gün Bosniya və Herseqovina müharibəni bitirməyə müvəffəq olmuş olsa da, ölkədə birlik yarada bilməmişdir. Gələcəkdə milli kimlik və birliyin formalaşması və ya davamlı bölünmənin yeni bir münaqişə ilə nəticələnməsi sadəcə bu üç etno-konfessional qrupun gələcəyə yönəlik verəcəyi qərarlarından asılıdır.

# Post-Müharibə Milli Kimliyi Necə Formalaşır? Etnik yoxsa Regional Fərq? Etnik Fərqliliklər yoxsa Manipulyasiya?

***Əlibaxış Rəşidzadə***

*"Bosniya və Herseqovinanın dinc və firavan gələcəyi, xalqlarının ortaq dəyərlərə və istəklərə əsaslanan ortaq bir kimlik yaradaraq bir-birlərinin mənsubiyyətlərinə hörmətetmə qabiliyyətindən asılıdır".*

*Bosniya və Herseqovina üzrə Ali Nümayəndəsi vəzifəsini icra etmiş sloven mənşəli avstriyalı diplomat Valentin İntsko*

1991-1995-ci illər müharibəsindən sonra Bosniya və Herseqovinada milli kimliyin hansı təsirlər əsasında formalaşması hələ də aktiv müzakirə predmetidir. Cavabı axtarılan sual isə belədir: Müharibədən sonrakı milli kimlik etnik və ya regional bölgüyə əsaslanır, yoxsa bu fərqlilik siyasi elitalar və digər aktorların manipulyasiya fəaliyyətlərinin nəticəsi kimi qəbul edilməlidir?

*Bosniya və Herseqovinadakı post-müharibə konteksti*

Müharibə başa çatanda - 1995-ci ildə Deyton sülh müqaviləsi Bosniya və Herseqovinanı iki əsas quruma böldü: əsasən boşnaklar və xorvatlardan ibarət Bosniya və Herseqovina Federasiyası və serblərin çoxluq təşkil etdiyi Serb Respublikası. Bu iki siyasi qurumdan əlavə 1999-cu ildə üçüncü vahid - çoxmillətli və strateji cəhətdən əhəmiyyətli Brçko bölgəsi yaradıldı. Bölgə müstəqil inzibati özünüidarə vahididir.

Bu üçtərəfli bölgü müharibə nəticəsində fərqləri daha da kəskin büruzə verməyə meyilli olan etno-konfessional qrupları coğrafi sərhədlərlə qəti şəkildə ayıran siyasi quruluşa transformasiya etdi.

*Etnik yoxsa regional fərq?*

Deyton müqaviləsi post-müharibə dövründə etnik kimlikləri (boşnak, xorvat, serb) Bosniya və Herseqovinadakı milli kimliyin əsas müəyyənedici faktor kimi qəbul etməklə qalmadı, həmçinin siyasi vəzifələri (rolları) və haqları etnik mənsubiyyətə əsasən təyin edərək institutlaşdırdı. Məsələn, ölkədə prezidentlik vəzifəsi də boşnak, xorvat və serb bölgüsü ilə üçlü mahiyyət kəsb edir. Bu isə siyasətin və etnik mənsubiyyətin bir-birilə necə yaxından əlaqəli olduğunu aydın şəkildə göstərir.

Ölkədə çaxnaşmanın başlamasının əsas səbəbinin etnik fərqliliklər olduğunu və etnik əsaslı bürokratiyanın təəccüblü olmadığını iddia edən qruplar mövcud olsa da, bu prosesin

müharibədən sonra təbii şəkildə baş verib-verməmdiyi, yəni kənar təsirlərin rolunun nə qədər böyük olduğu hələ də maraq doğurur.

*Siyasi və sosial manipulyasiyanın rolu*

Bu səbəbdən haqqında ən çox danışılan arqumentlərdən biri Bosniya və Herseqovinadakı etnik və regional kimliyin post-müharibə dövrünün təbii nəticəsi olması deyil, əksinə, siyasi elitaların bundan öz məqsədləri uğruna manipulyasiya aləti kimi qəbul edilməsidir. Belə ki, bir çox araşdırmaçı siyasi liderlərin etnik fikir ayrılıqlarını həm qorumaqda, həm də şişirtməkdə maraqlı olduqlarını iddia edirlər. Onlar bu vasitəni həmçinin öz seçicilərində xarici təhdidlər qarşısında həmrəylik hissinin artırılması potensialında mühüm element kimi qiymətləndirə bilərlər. Ümumilikdə, bu manipulyasiya, əsasən, onların əməllərini qanuniləşdirməyə xidmət edir.

Təəccüblü deyil ki, təhsil sistemi də insanların öz mənsubiyyətləri haqqında anlayışlarının istiqamətli şəkildə formalaşdırılmasında açar rola malikdir. Məsələn, post-müharibə dövründə ölkədaxili ümumilikdə 12-dən çox təhsil sistemi olmasından əlavə, əksər hallarda "tarix" yalnız etnik baxımdan təqdim olunur. Bu isə nəinki ictimai danışıqların qütbləşməsinə şərait yaradır, həmçinin etnik qruplar arasında mümkün əməkdaşlıqların qarşısını almağa kömək edir.

Anlaşılandır ki, arqumentin əsas iddiası müharibədən sonrakı Bosniya və Herseqovinada milli kimliyin formalaşması yalnız etnik və ya regional fərqlərin özünü daha aktiv büruzə verməsi deyil, həm də siyasi və sosial manipulyasiyanın məhsulu olmasıdır. Belə ki, siyasətçilər, təhsil sistemi, media və hətta beynəlxalq xadimlər bu fikir ayrılıqlarının öz xeyirləri üçün qorunmasına kömək edir, etnik və regional fikir ayrılıqlarının aradan qaldırılmasını çətinləşdirir.

Nəticə etibarilə, post-müharibə Bosniya və Herseqovinasındakı milli kimlik etnik və regional fərqliliklərlə bərabər siyası və sosial manipulyasiyanın qarşılıqlı kompleks əlaqəsi ilə formalaşır. Etnik mənsubiyyət siyasi sistemdə təyinedici rol oynasa da xarici aktorlar və onların təsirlərinin rolu da qaçılmazdır. Daxili bölünmələr sadəcə müharibənin təbii nəticəsi sayəsində yox, həmçinin iqtidardakıların təşəbbüslərinin nəticəsidir. Ölkənin bu bölünmələrə həlledici rol yükləməyə davam edib-etməyəcəkləri daha əhatəli bir milli mənsubiyyət hissinin inkişaf edib-etməyəcəyindən birbaşa asılıdır.

# Bosniya və Herseqovinada Birgəyaşayış: Ziddiyətlər və İslahat Zərurəti

*Ağa Ağayev*

*"Bütün məktəbdə etnik mənsubiyyətinə görə yeganə olan serb uşaq hər gün bir çox serbi öldürən tanınmış hərbi cinayətkarın xatirəsinə lövhə olan girişdən keçir. Uşaq məktəbdə tək qalmaq istəmədiyi üçün islam dini dərsində arxa sırada oturur".*

Bosniya və Herseqovina haqqında ümumi düşüncələrin olduğu, əslində isə kifayət qədər qarışıq bir dövlətdir. Bir çox etnik, dini və milli dəyərlər fərqlənir və tarixi təcrübə göstərir ki, bu fərqlilikləri birgəyaşayış və qarşılıqlı anlaşmanın əsas prinsiplərinə çevirmək üçün ən effektiv vasitə təhsildir. Məktəblər və digər təhsil qurumları, xalqlarası körpü yaratmaq, stereotipləri yıxmaq və ortaq kimlik anlayışını aşılamaq üçün əsas institutlar olduğu təqdirdə, Bosniyada bunun əksi müşahidə olunur. Təhsil sistemi isə özlüyündə ziddiyətlər daşıyır. Vurğulamaq gərəklidir ki, boşnaklar, xorvatlar və serblər hər biri özünəməxsus kurikulumdan istifadə edir. Materiallar və tədris sistemində ayrıseçkilik elementlərinin əks olunması və təhsilin propaqanda alətinə çevrilməsi, onun rolunun xəfifə alınması ilə nəticələnir. Göründüyü kimi, sistemdə islahatlara ehtiyac var, lakin indiki dövrə qədər effektiv bir addım atılmamışdır. Kin və nifrət kimi xalqların yaddaşında oturuşmuş stereotipləri yıxmadan birgəyaşayışa çatmaq mümkün olmayacaqdır. Bu yazının məqsədi, təhsil sisteminin ümumilikdə necə işlədiyi, mövcud olan boşluqlar və atılmış addımlar, həmçinin birgəyaşayışın prinsiplərini və mümkünlüyünü araşdırmaqdır.

*Problemli və qarışıq təhsil sistemi*

Bosniya və Herseqovinanın təhsil sisteminin Deyton müqaviləsində tənzimlənmə forması mübahisə yaradan əsas məsələdir. Müqaviləyə görə, təhsil sisteminin qurulması Vətəndaş münasibətləri nazirliyində, Serb Respublikasında, Bosniyada və Herseqovina Federasiyası daxilində isə kantonlar səviyyəsində formalaşır. Bu isə özlüyündə 13 ayrı qurum, yəni 13 fərqli kurikulum deməkdir. Digər bir maddəyə görə hər hansı dəyişiklik və ya problem konsensus yoluyla həll edilməlidir, yəni müqavilə Nazirliyə müdaxilə mandatını verməmişdir. O dövrdən indiyə kimi formalaşan problemlərin bazisi bu maddələrdir.

Hazırda təhsili xarakterizə edən iki əsas əlamət mövcuddur:

1. Siyasiləşmə

2. Ayrıseçkilik

Təhsilin siyasiləşməsi müxtəlif mənbələrdə və dərs materiallarında da müşahidə olunur. Məsələn tərəflər 1999-cu ildə dərsliklərdəki nifrət nitqlərinin çıxarılması barədə razılığa gəliblər. İmplementasiya prosesi isə bu razılaşmanın simvolik olduğunu sübut edir. Kinə səbəb ola biləcək ifadələr, sadəcə qara markerlərlə qaralanır və qaralanan həmin

cümlələr məktəb bülletenlərində yenidən qeyd olunur. Digər bir cəhd isə ortaq kurikulumu yaradılmasıdır.

Bosniya kantonların "həyati milli maraqlar"ına zidd olduğunu irəli sürərək ümumi implementasiyadan boyun qaçırmışdır. Hazırkı dövrdə də, siyasi dairələr təhsili propaqanda alətinə çevirməyə çalışdıqları üçün sistemin bütün elementləri üzərində təzyiq mövcuddur. Materiallar daha çox qurbanlaşdırma və qarşı tərəfi mənfur düşmən obrazına çevirmə fokusunda qurulduğu üçün köhnə stereotiplər daha radikal formada özünü büruzə verir. Yekunda siyasi təzyiqin nəticəsində təhsilin əsas motivi digərlərini uzaq tutmaq və günahlandırmaq olur.

Ayrıseçkilik isə bir neçə formada özünü göstərir. Valideynlər uşaqlarını assimilyasiya təhlükəsindən qorumaq üçün mono-etnik məktəblərə göndərir, milli fənlər proqrama daxil edilir. Praktikada bir dam altında iki məktəb nümunəsi mövcuddur. Bu tip məktəblərin məqsədi geri dönən azlıq qrupun lokal məktəblərə adaptasiyası idi. Şagirdlər eyni məktəbə getsələr də, bu, fərqli kurikulumda və fərqli vaxtlarda həyata keçirilir. Məsələn, xorvat qrupu səhər dərsə gedir və məktəbdə xorvat bayrağı asılır. Günorta isə boşnak qrupu dərsə gəlir və bayraq Bosniya bayrağına dəyişdirilir. Müharibədən sonrakı bir müddət bu prosesin xalqların yenidən barışması üçün müsbət faktor olduğu düşünülsə də, əksinə kin və nifrət təhsil ocaqlarında aşılanmağa başladı. Assimilyasiyanı önləmək üçün mono-etnik məktəblər mövcuddur və bu qrupdakı şagirdlər digərləri ilə ünsiyyətə girmir və bir növ özlərini izolyasiya edirlər. Xorvat bir şagird qatıldığı coğrafiya kursunda gözləmədiyi məqamlarla qarşılaşır. İştirakçılara Xorvatiya coğrafiyası və paytaxtın Sarayevo yox, Zaqreb olduğu öyrədilir. Bu elementlər sistemi daha da radikallaşdırır və qruplararası gərginliyi artırır. Ən kiçik qığılcım belə münaqişə səbəbinə çevrilə bilər. Nümunə olaraq, boşnak əhalinin öz dillərinə boşnak dili deməsi bəzi regionlarda onlar üçün həm risk, həm də təhlükədir.

*Birgəyaşayış uğurludurmu?*

Təhsil sistemi kimi, birgəyaşayış siyasəti də qarışıq və problemlərin göründüyü bir sahədir. Bosniyanın birgəyaşayış modeli simvolik olaraq, uğurlu görünə bilər, lakin bu sülhpərvər birgəyaşayış sayıla bilməz. Təhsilin müəyyən dərəcədə siyasi maraqlar uğrunda yeni doqmalar və stereotipləri davamlı şəkildə formalaşdırdığını qeyd etmək lazımdır. Birgəyaşayışın effektiv olub-olmadığını anlamaq üçün digər aspektlər daha önəmlidir. Dini və etnik aspektlərin müqayisəsi önəmlidir. Məsələn, boşnak, xorvat və serblərin eyni etnik qrupa daxil edilməsi mümkündür, lakin məsələ dini aspektə gəldikdə kəskin ayrılıqlar ortaya çıxır. Hazırkı dövrə qədər də, münaqişə və birgəyaşayış kimi proseslərin kökündə kimlik məsələsi dayanır. Əsas problem odur ki, bu xalqlar müxtəlif kimliklərə sahib olsa da, Yuqoslav kimliyi kimi ortaq bir kimlik formalaşmamışdır.

*"Biz hamımız eyniyik, bu səbəbdən də münaqişəni həll etmək daha da çətindir"*

Hazırda, fiziki sərhədlər daxilində xalqlar birgə yaşasa da, mənəvi sərhədləri aradan qaldırmaq mümkün deyil. İlk növbədə tarixi arxa plan, ardınca media və təhsil kimi vasitələr nifrət və düşmənçiliyin davamlı mövcudiyyətinin bir sıra səbəbləri olsa da, hazırda siyasi mübarizə bu məsələdə daha mühüm rol oynayır, çünki sülhə əsaslanan birgəyaşayışı poza

biləcək amillərdən biri radikal millətçilikdir və bu tendensiya hər gün daha da yüksəlməyə davam edir. Bu proses isə birbaşa seçki institutuna təsir edir və namizədlər bu prosesi öz lehlərinə çevirməyə çalışırlar. Xalq isə yetəri qədər seçki məsələlərinə ciddi yanaşmadığı üçün "müvəqqəti sülh" vəziyyətinin pozulması mümkün ehtimallardan biridir. Bu tipli qeyri-ciddi yanaşmalar isə xalqlar arasında federasiyadan ayrılmaq kimi fikirlərin yüksəlməsinə yol açır.

Bosniya və Herseqovinada təhsil və birgəyaşayış siyasətlərini ayrı-ayrılıqda dəyərləndirməmişdən öncə, ümumi nəticə olaraq hər iki sturukturda problemlər olduğu və bu problemlərin uzun periodda yeni münaqişəni körükləyəcəyini təxmin etmək elə də çətin deyil. Təhsil zamanı vəsaitlərin qurbanlaşdırma və mənfur düşmən obrazı yaratma meyilləri, siyasi dairələrin təzyiqinin bariz hiss edilməsi və məktəblərdə belə dinc birgəyaşayışın əlçatmaz olduğu əsas reallıqlardır. Hər hansı islahat və ya dəyişiklik fikri isə vurğulanan səbəblərin təsiri ilə etnik qruplar tərəfindən də dəstəklənmir, əksinə bu tipli addımlar xəyanət kimi qiymətləndirilir.

Sülhə əsaslanan birgəyaşayış isə mövcud narrativ və stereotiplərin yenilənməsi, siyasi namizədlər və xalqlar arasında yüksələn millətçilik dalğası səbəbilə tamamilə uğurlu deyildir. Birgəyaşayış ümumilikdə kifayət qədər geniş məfhumdur və onun təhsildən başqa digər aspektlərinin də qərəzli xarakter daşıdığını müşahidə edə bilərik. Yekun nəticə olaraq isə Bosniya və Herseqovina modeli birgəyaşayış və təhsil sisteminin hələki tam mənada effektiv olmadığı bariz ortadadır.

# Bosniya və Herseqovinanın "Çoxmillətli" Siyasi Sistemi: Etnik İflic

***Səbinə Məmmədli***

1992-ci ilin 3 mart tarixində Yuqoslaviya Sosialist Federativ Respubikasından ayrılan Bosniya və Herseqovinada (BH) 4 illik müharibəni sonlandıran Deyton sazişinin imzalanması ilə 1995-ci ilin dekabrından etibarən hökumət fəaliyyətə başlayır. BH-nin siyasi sistemi qarışıq idarəetmədir, lakin o, həm prezident, həm də parlament sistemlərinin elementlərini ehtiva etdiyi üçün qeyri-adi xarakter daşıyır. Onun qismən prezidentli olması nəzəriyyəsi ona görə dəstəklənir ki, BH Prezidentliyi öz dairələri tərəfindən bu vəzifəyə seçilən üç üzvdən - bir boşnak, bir xorvat və bir serbdən ibarətdir. Hüquqi sənədlərə və siyasi sistemin təşkilinə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, BH Federasiyasında daha güclü olan parlament idarəetmə forması, Serb Respublikasında isə daha çox üstünlük təşkil edən prezidentli sistemin elementləridir.

BH-də hökumət strukturu belədir: hökumət və onun orqanları, kanton orqanları, xüsusi statusa malik olan Brçko rayonunun hakimiyyət orqanları, şəhərlər və bələdiyyələr. BH-də suverenlik hüququ müvafiq olaraq BH Parlament Assambleyasının Nümayəndələr Palatası, Federasiyanın Nümayəndələr Palatası və ya Serb Respublikasının Milli Assambleyası, federasiya üzrə kanton məclisləri, və bələdiyyə məclislərinə deputatları birbaşa seçən vətəndaşlar tərəfindən həyata keçirilir. Bundan əlavə, suverenlik təsisçi xalqlar arasında təmsilçilik pariteti prinsipi əsasında həyata keçirilir.

Ədəbiyyatda tez-tez BH-nin tamamlanmamış bir dövlət olduğu fikrinə rast gəlmək olar. Belə bir iddianın dövlət institutlarının, xüsusilə məhkəmə sisteminin natamam olması ilə bağlı real əsası ola bilər. Digər çatışmazlıq ondan ibarətdir ki, siyasi sistem Deyton sazişinin imzalanmasından xeyli müddət sonra qurulub. Məhkəmə institutları və prokurorluqlar kantonlar səviyyəsində tam inkişaf etdirilsə də, dövlət və yerli özünüidarəetmə strukturu təfərrüatlı şəkildə qurulmamışdır.

Bosniya və Herseqovinanın partiya sistemi həm seçki, həm də idarəetmə funksiyaları baxımından Bosniya müharibəsi və Deyton sülh sazişindən güclü şəkildə təsirlənmişdir. Bosniya və Herseqovinada zorakılığa son qoymağa müvəffəq olan Deyton sazişi namizədlər, partiyalar və seçicilər üçün etnik fərqliliyə əsaslanan partiyalara və siyasətə üstünlük verən stimullar yaratmış və kompromis üçün yer saxlamamışdır. Müharibəyə son qoyan sənəd ölkənin siyasi parçalanmasına və ifrat konsensus demokratiyasının yaranmasına yol açmışdır.

Bir sözlə, idarəetmədə əməkdaşlıq təcrübəsi seçki siyasətində özünü göstərmir. Bosniyada elə bir seçki yoxdur ki, orada bütün seçicilər parlamentdə eyni yer üçün eyni namizədlərdən birini seçsinlər. Seçicilərin parçalanması ölkənin siyasi parçalanmasına dəstək verir. BH-də etnik qruplar tərəfindən qınanaraq legitimliyi itirmə qorxusu və siyasi məqsədlər üçün etnik dözümsüzlüyü alovlandıran milli liderlik praktikası bariz şəkildə ortaya çıxmış, siyasiləşdirilmiş dözümsüzlüyün dominantlıq təşkil etdiyi siyasi mədəniyyət daxilində meydana çıxan şəxslərin rəhbərliyi üstünlük qazanmışdır. Belə bir mühitdə güzəştə getmək

zəiflik və qrup maraqlarını satmaq əlaməti kimi qəbul edilir. BH siyasi elitanın digər qrupların liderləri ilə əməkdaşlıq etmək həvəsinə malik olmadığı bir məhbus dilemmasından əziyyət çəkir, çünki onlar digər liderlərin nə edəcəyini təxmin edə bilmirlər və nadir hallarda buna ehtiyac duyurlar.

Bosniya və Herseqovina çoxmillətli dövlətlərdən biri hesab olunur. Demokratiyanı "insanların çoxluğunun nümayəndələrinin idarə etməsi" mənasını verən xalqın idarəetməsi kimi xarakterizə etmək olarsa, bu anlayışın çoxmillətli dövlətin təməli ilə toqquşduğunu iddia etmək olar. Bosniyanın müharibə tarixinə görə, çoxmillətlilik assimilyasiya, ayrıseçkilik, əhalinin köçürülməsi, etnik təmizləmə ilə assosiasiya olduğundan, milli müxtəlifliyin demokratik strukturlar daxilində yerləşdirilməsi Bosniyada çoxmillətli federalizmin müzakirəsində əsas yer tutur. Elmi ədəbiyyatda parçalanmış və çoxmillətli cəmiyyətlərə nisbətən monoetnik cəmiyyətlərdə demokratiyanın əhəmiyyətli dərəcədə uğurlu olduğunu irəli çəkən tezislər geniş yayılmışdır. Səbəb kimi ölkənin böyük əksəriyyətinin aydın şəkildə bir millət adı altında eyniləşərək yaşadıqları ərazini milli dövlətləri olaraq görmələri göstərilir. Yəni konsensusun əldə olunması perspektivi daha yüksək və qruplararası zorakılıq potensialı daha aşağı olur. Bununla belə, monomilli dövlətlərin çoxmillətli dövlətlərdən daha sabit demokratiyaya sahip olduqları fikrinə qarşı çıxan müəlliflər də var. Onlar iki əsas nəticəyə gəlirlər; 1) etnik homogenliyin olması daha açıq siyasi rejim olmaqla əlaqəli deyil və 2) etnik müxtəlifliyin dərəcəsi demokratiyanın perspektivlərinə təsir göstərmir. Belə olan halda Bosniya və Herseqovina kimi çoxmillətli dövlətdə demokratik qərarvermə asanlaşdıracaq ən uğurlu sistemin qurulması problemi həllini gözləyir. Ən məşhur iki təklif kimi liberal millətçilik və konsosiasiyaçılıq önə çıxır, ancaq bu iki həll yolu olaraq irəli çəkilənlərin də çatışmazlıqları qeyd edilir. Beləcə, təəssüf ki, BH-nin effektiv siyasi sisteminin qurulması üçün edilən müzakirələrin görülən işlərdən daha çox olmasının şahidi olmaq mümkündür.

# Deyton Sülh Müqaviləsi və Güc Bölünməsi: Xarici Siyasət Necə Həyata Keçirilir?

***Camal Vəliyev***

*"Bosniya və Herseqovina xarici siyasətin subyekti deyil, obyektidir".*

*Anonim*

Bosniya və Herseqovina. Bəlkə dünyanın siyasi xəritəsində bu qədər qeyri-mərkəzləşmiş və anomaliyalarla dolu başqa ölkə yoxdur. Belə ki, bu dövlət 3 prezident tərəfindən idarə olunan yeganə sistemdir. Ənənəvi idarəçilik sistemlərində daxili və xarici siyasət icraedici orqan (prezident, baş nazir və s.) tərəfindən formalaşdırılır və həyata keçirilir. Bosniya və Herseqovinada isə icraedici orqanın rəhbərliyində əksər zamanlarda bir-biri ilə ziddiyyətli mövqelərə malik 3 prezident mövcuddur. Bosniya və Herseqovinanın xarici və daxili siyasəti kifayət qədər tənzimlənməmiş hüquq normaları sisteminin və xaricdən təsirlənən, daxildə dayanıqlı olmayan, müxtəlif siyasi güc mərkəzləri tərəfindən ciddi şəkildə koordinasiya olunan institusional quruluşun bir hissəsi kimi inkişaf etmişdir. Faktiki olaraq ölkənin hələ də xarici siyasət haqqında qanununun olmadığını vurğulamaq yerinə düşər. Belə bir halda dövlətin hər bir orqanının necə fəaliyyət göstərməsi kifayət qədər maraq doğuran mövzudur. Lakin bu yazının əsas fokusu Bosniya və Herseqevinanın bu qarışıqlıq vəziyyətində xarici siyasətini necə formalaşdırdığı və onun praktiki olaraq necə işlədiyi barəsindədir.

*İnstitusional çərçivə*

Bosniya və Herseqovinanın xarici siyasət formalaşdırma haqqında ilkin hüquqi sənəd statusunu Deyton müqaviləsinin 4-cü əlavəsində qeyd olunmuş Bosniya və Herseqovina Konstitusiyasında tapa bilərik. Sözügedən konstitusiyanın 3-cü maddəsi olan Bosniya və Herseqovina institutları və subyektlərinin[4] məsuliyyət və əlaqələri haqqında maddənin 1-ci punktunda qeyd olunur ki, xarici siyasət Bosniya və Herseqovina institutlarının məsuliyyətindədir.

Eyni zamanda bir sonrakı bənddə subyektlərin məsuliyyət və hüquqlarında qeyd olunur:

a. Subyektlər qonşu dövlətlərlə Bosniya və Herseqovinanın suverenliyi və ərazi bütövlüyünə uyğun xüsusi paralel əlaqələr qurmaq hüququna malikdirlər.
b. Hər bir subyekt Parlament Assambleyasının razılığı ilə dövlətlər və beynəlxalq təşkilatlarla da müqavilələr bağlaya bilər. Parlament Assambleyası qanunla müəyyən edə bilər ki, müəyyən növ müqavilələr üçün belə razılıq tələb olunmasın.

[4] Burada Bosniya və Herseqovinanı təşkil edən Bosniya və Herseqovina Federasiyası və Serb Respublikası (Republika Srpska) nəzərdə tutulur.

Buradan aydın olur ki, xarici siyasətin aparılması dövlətin özü kimi qeyri-mərkəzləşmiş şəkildə formalaşdırılmışdır. Beləki, ümumi olaraq xarici siyasət məsələləri dövlətin idarəçiliyinə və icra orqanına həvalə olunsa da, subyektlərin də qonşu və digər dövlətlərlə əlaqəyə girmək hüququ mövcuddur. Subyektlər və dövlət hansı məsələni hansı səviyyədə həll edəcəkləri barədə iş prosesi (modus operandi) formalaşdırıblar. Bu özü-özülüyündə vahid xarici siyasət kursu formalaşdırmağa məhdudiyyətlər yarada bilər. Xarici siyasətin icrası ilə də əlaqədər məsələlər Konstitutsiyanın 5-ci maddəsi olan prezidentlikdə qeyd olunmuşdur.

Prezidentlik aşağıdakılara cavabdehdir:

a. Bosniya və Herseqovinanın xarici siyasətinin aparılması
b. Bosniya və Herseqovinanın üçdə ikisindən çoxu olmamaqla federasiya ərazisindən seçilə bilən səfirlərin və digər beynəlxalq nümayəndələrin təyin edilməsi
c. Beynəlxalq və Avropa təşkilatlarında və qurumlarında Bosniya və Herseqovinanı təmsil etmək və Bosniya və Herseqovinanın üzvü olmadığı bu cür təşkilat və qurumlara üzv olmaq
d. Danışıqlar aparmaq, denonsasiya etmək və Parlament Assambleyasının razılığı ilə Bosniya və Herseqovina müqavilələrini ratifikasiya etmək

Kənardan bu müddəalara baxan zaman digər dövlətlər və Bosniya və Herseqovina arasında ciddi bir fərq görmürük, lakin məsələlərə yaxından baxdıqda təzadlı və qeyri-funksional mühit yarada biləcək məqamlara rast gələ bilərik. Məsələn, bu subyektlərin özləri sazişlər imzalaya, qonşu dövlətlərlə əlaqə girə bilməsi nə ilə nəticələnə bilər? Ölkənin xarici siyasətdə razılaşdırdığı vahid məsələlər varmı? İrəlidə məhz Bosniya və Herseqovinanın xarici siyasətinin sözügedən şəraitdə praktiki olaraq necə işlədiyinə nəzər salacaq və bu suallara cavab tapmağa çalışacağıq.

*Praktiki çərçivə*

Bosniya və Herseqovina 3 əsas etno-konfessional qrupdan təşkil olunmuşdur. Boşnak, serb və xorvat icmasının hər birinin seçdiyi prezident üçtərəfli rəyasət heyəti adlanan icraedici orqanın üzvü olur. İkipalatalı parlamentin özündə də etnik bölünmələrə uyğun kvotalar qoyulmuşdur. Belə olduğu halda Bosniya və Herseqovina daxilindəki üç icma rəhbərlərinin hər birinin xarici siyasətə yanaşması müxtəlif, hətta bir-birinə zidd ola bilir. İlkin müşahidələrə əsasən bu fikri irəli sürmək olar: serblər Serbiya və Rusiya, boşnaklar Türkiyə, İran və İslam dünyası, xorvatlar isə Xorvatiya və Avropa Birliyi ilə daha yaxın əlaqələr qurmaq məqsədi güdürlər. Bu vəziyyəti "çoxlu dost var, lakin müttəfiq yoxdur" kimi də təsvir etmək olar. Vahid bosniyalı kimliyinin yox dərəcəsində olması da xarici siyasətin sütunlarından olan milli maraq anlayışının da yoxluğu, yaxud milli marağa hər kəsin fərqli yanaşması da vahid diskurs və ümumi xətt yaradılmasının qarşısında ciddi maneə törədir. Bütün bunlara baxmayaraq ümumi də olsa razılaşdırılmış məsələlər mövcuddur. Bunlara biz 2018-2023-cü illərə aid Bosniya və Herseqovina xarici siyasət strategiyasında rast gələ bilərik:

a. Təhlükəsizlik və sabitlik;
b. İqtisadi rifah;

c. Bosniya və Herseqovina vətəndaşlarının xaricdə maraqlarının qorunması və beynəlxalq hüquqi əməkdaşlıq;
d. Bosniya və Herseqovinanın dünyada tanıdılması.

Lakin göründüyü kimi, bu müddəalar çox ümumi olub özündə konkretliyi ehtiva etmir. Bu kontekstdə Bosniya və Herseqovinada xarici siyasətin daxili siyasətə qurban verildiyini də iddia etmək olar. Xarici siyasətin praktiki həyata keçirilməsinə gəldikdə, yerli icmaların maraqları üstünlük təşkil edir və institusional təşəbbüsləri şübhə altına salır. Onların hərəkətləri təkcə hökumətin siyasətinə müxtəlif daxili və xarici rakurslardan təsir etməyi deyil, həm də müxtəlif sahələrdə hökumətin işini əsaslı şəkildə yenidən nəzərdən keçirməklə nəticələnir. Hakimiyyətdə olan şəxslər öz ideyalarını və siyasətlərini həyata keçirərkən, institusional olaraq inkişaf etdirilən proqramlar ya əziyyət çəkir, ya da heç vaxt yaradılmır.

Nəticə etibarı ilə biz Bosniya və Herseqovinanın xarici siyasət formalaşdırılmasında həm hüquqi-institusional, həm də praktiki məhdudiyyətləri müşahidə edə bilərik. Deyton sazişinin bir hissəsi olan Konstitusiyadan bu yana Bosniya və Herseqovinanın xarici siyasətlə əlaqəli çox ümumi və məhdud sənədlərlə rastlaşırıq.

# Post-Münaqişə Dövründə Bosniya:
# Keçid Ədaləti Dilemması və İnstitusional Problemlər

***Mirzəbəy Əzimli***

Deyton sazişi etno-siyasi oriyentasiya və dini cəhətdən qütblərə ayrılan boşnak, serb və xorvatlar üçün 3 ildən artıq davam edərək çoxsaylı hərbi cinayətlərlə, o cümlədən soyqırımla, müşayiət olunmuş müharibəni dayandırmağı bacarsa da, post-münaqişə dövrünün qazandırdığı problemləri həll edə bilmədi. Xüsusilə, imzalanan çərçivə sazişi 1992-ci ilin aprelindən 1995-ci ilin sentyabrına qədər davam etmiş döyüşlərinin ardınca təsis edilmiş Bosniya və Herseqovina Respublikasının faktiki şəkildə etnik zəmində bölünməsini legitimləşdirirək dövlət, qurum və kanton səviyyəsində 14 qanunverici mərkəzin qərar qəbuletmədə iştirakını hüquqi aktor saymaqla yeni separatizm cəhdlərinə və yerli idarəetmə orqanlarının partiya siyasətinin təsiri altında dövlət institutlarının fəaliyyətinə müdaxilə imkanlarına yol açıb.

Bu cəhətdən, regionda münaqişənin tənzimlənməsi və sülhquruculuğu istiqamətində atılan addımlar müharibə zamanı törədilmiş cinayətlərə hüquqi cavabdehlik gətirilməsi, köçkünlərin qayıdış prosesi, barışıq təşəbbüslərində sosial-siyasi inteqrasiya problemləri kimi mürəkkəb landşaft meydana gətirib. Xüsusilə, etnik təmizləmə nəticəsində yaranmış demoqrafik dəyişikliklər yerli siyasətçilərin milli zəmində sui-istifadəsinə yol açaraq normallaşma prosesində aşkar maraqlı olmadıqlarını və millətlərə bölünmüş elektorat vəziyyətini dəstəklədiklərini büruzə verir. Ümumillikdə, Bosniya post-münaqişəsində keçid ədaləti və institusional islahatlar özündə bir çox ziddiyəti ehtiva edir.

Döyüşlərin dayandırılması ilə yanaşı, Deyton sazişinin keçid ədalətinin təmin olunması naminə prinsipial bəndlərindən biri də zərərçəkmiş bosniyalı qaçqınların və məcburi köçkünlərin qayıdış prosesi idi ki, müqavilənin 7-ci fəslində əksini tapmış geri qayıtmaq hüququ, əmlakın bərpası və ya kompensasiya verilməsi məsələsi ilkin illərdə məhdud icra olunmaqla natamam yerinə yetirilmişdi. Belə ki, statistik olaraq müharibə səbəbindən ölkə daxilində yerdəyişmə etmiş 1 milyona yaxın köçkün və əsasən Qərbi Avropa olmaqla, ölkədən Serbiya, Çernoqoriya və Xorvatiyaya gedən təqribi 1,2 milyon qaçqın 2009-cu ilin dekabrında aktuallaşan qayıdış prosesində sülh sazişindən sonra belə etnik azlıqlara çevrildikləri bölgələrə təqib qorxusu və iqtisadi əngəllər səbəbindən (rəsmi işsizlik göstəriciləri 40% təşkil edirdi) geri qayıtmaq istəməmişdi. Bununla belə, sazişdən on il sonra Qərbi Avropa nümunəsində ilkin qaçqın əhalinin on faizindən azı Almaniyada qaldı. Paralel olaraq isə, 2005-ci ildə reparasiya istəməyən bosniyalıların 70.900-ü Avstriyada, 56.000-ni İsveçdə, 16.000 nəfəri isə Niderlandda həyatını davam etməyə və öz ölkəsinə qayıtmamağa qərar verib. Qeyd edək ki, müharibə ərzində ölənlərin və itkin düşənlərin ümumi sayını minimum 89.186 olduğunu və bunun Bosniya və Herseqovinanın 1991-ci il əhalisinin iki faizini təşkil etdiyini əsas götürərək Deyton sazişinin müsəlman bosniyalıların üzləşdiyi demoqrafik böhrana dair təhlükəsizlik problemlərini qabartmadığını və strateji qayıdış modeli təklif edə bilmədiyini demək mümkündür.

Spesifik olaraq isə post-münaqişə dövrünün fundamental çətinliklərindən biri də təhsil sistemində davam etməkdə olan etnik və dini seqreqasiyadır. Yüksək dərəcədə siyasiləşmiş dərs proqramları bir-birindən fərqli narrativlər əsasında konflikt tərəflərinin inteqrasiyasını təmin etmədən tədris olunur. Etnik meyarlar əsasında təşkil olunmuş təhsil siyasəti milli tolerantlığa təhdid formalaşdırmaqla bərabər, yetişməkdə olan gənc nəsillər arasında mədəni uçuruma şərait yaradır. Hətta Bosniya və Herseqovinadakı məktəblərin hərbi komandirlərin və ya müəyyən etnik qrupla əlaqəli tarixi şəxsiyyətlərin adlarını daşıması, habelə tarix, coğrafiya və dillər kimi etnik cəhətdən həssas fənlərin tədrisində digər etnik qruplara qarşı millətçi və dözümsüz ifadələrə yer verilməsi diskriminasiyanı artırır. Nümunə olaraq isə, “Bosniya serb coğrafiyası” dərsliyində “Sreb Respublikası müstəqil dövlətdir”, “Pravoslav xristianlıq ən mühüm dindir; boşnaklar müsəlman serblər, xorvatlar isə katolik serbləridir”, yaxud “Xəritələr bütün Serb dövlətlərini göstərir - Belqrad bütün serblərin paytaxtıdır” ifadələrini qeyd etmək olar. Eyni ritorikanın hökm sürdüyü xorvat dərsliklərində “Müsəlmanlar dini icma deyil, etnik qrupdur” narrativi, boşnaklar tərəfindən “Müsəlmanlar başqalarından fərqli olaraq müqəddəs obyektlərə hücum etmirlər”, “Bütün serblər Bosniya və Herseqovinada təcavüz və soyqırımı etdilər” yanaşmasının ortaya çıxmağı ilə müşahidə edilir.

Buna baxmayaraq, ATƏT-in Bosniya və Herseqovinadakı Missiyası insanları öz evlərinə qayıtmağa təşviq etmək və etnik zorakılığın qarşısını almaq üçün müvəqqəti tədbir kimi 2000-ci ildə “Bir dam altında iki məktəb” planını hazırlayaraq pilot layihə təqdim etmişdi. Paralel şəkildə 2000-ci il 10 mayda Ali Nümayəndəlik və Serb Respublikası Təhsil Nazirlərinin imzaladığı bəyannamədə dərsliklərdəki təcavüz və müharibə cinayətlərinə görə təqsiri “digər tərəflərə” bölüşdürən təhqiredici istinadları silmək və İsveçrə modelinə əsaslanan təhsil strategiyasına keçid razılaşdırılmışdı.

Qeyd etmək lazımdır ki, İkinci Dünya Müharibəsinin ardınca İosip Broz Titonun rəhbərliyi altında Balkan xalqları üçün sosializm baza ideologiya olmaqla “qardaşlıq və birlik” şüarları ilə eyni mədəni kimliyə sahib Yuqoslaviya modeli yeni identikliyin inşasına başlanması SSRİ-nin bu istiqamətdəki “homo sovetikus” termini ilə bilinən sosial təcrübəsinin uğursuzluğunu təkrarlamışdı. Titonun ölümündən sonra regionda milli əsaslarla mərkəzdənqaçma meyllərinin və radikal millətçiliyin yüksəlişi latent etnik nifrəti dərinləşdirərək “millətlərin əridilməsi” prosesini nəticəsiz yekunlaşdırdı. Deyton sazişi və geniş mənada post-konflikt rəsmi diskurs isə hələ də “Bosniya və Herseqovina vətəndaşı” anlayışı üzərindən boşnak, xorvat və serblər üçün ortaq identikliyi qazandıra bilmədiyini etiraf etmək lazımdır.

Xatırlatmaq yerinə düşər ki, kollektiv travma amili münaqişədən sonra hərbi cinayətlərin mühakiməsi və hüquqi cəza tətbiqindən sonra da hər 3 icmada yeni mərhələyə keçiddə çətinliklərlə üzləşdi. Etiraf və barışıq ilkin mərhələdə gözlənilən olsa da, bu məsələ boşnak və serblər arasında bu günə qədər də ziddiyət təşkil edir.

1995-ci ildə sabiq prezident Aliya İzetbeqoviç keçmiş Yuqoslaviyadakı son münaqişə ilə bağlı beynəlxalq araşdırma komissiyasının təsisinə razılıq verərək transformasiyanı və birgəlik mühitini dəstəklədiyini açıqladı. Lakin burada belə, proses gecikərək 2001-ci ilin

may ayında Sarayevoda keçirilən "Vaxtı gəlib çatmış ideya: Bosniya və Herseqovinada Həqiqət və Barışıq Komissiyası" adlı konfransda "Bosniya Həqiqət və Barışıq Komissiyası"-nın (TRC) yaradılması başladı. Maraqlı cəhətlərdən biri də bu idi ki, baş tutan təşəbbüs üçün dəvət göndərilən serb icmasının siyasi və dini nümayəndələri konfransda iştirakdan imtina etmişdilər. Komissiya isə keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Müharibə Cinayətləri Tribunalının (ICTY) işini tamamlaması üçün nəzərdən keçirərək əsasən üç istiqamətdə; 1) mülki vətəndaşların qəzəblərini və ya günahlarını ifadə etmək üçün forum olaraq; 2) etnik təmizləməyə müqavimət göstərən və digər etnik qruplardan olan qurbanları qoruyan və ya onlara yardım edənlərə dəstək verən birlik kimi; 3) cəmiyyətin yenidən qurulması, keçmiş sui-istifadə aktlarının aradan qaldırılmasını məqsəd tutan təşkilat olaraq fəaliyyət göstərdi.

Sözsüz ki, keçid ədaləti Beynəlxalq Müharibə Cinayətləri Tribunalı tərəfindən 161 nəfərə qarşı cinayət ittihamı, 13 nəfərinin isə mühakimə olunmaq üçün milli yurisdiksiyalara verilməsi prosesi ilə yekunlaşa bilməzdi. Bərpaedici mühakimə tərəfinin boşluqlarından biri də, vətəndaş müharibəsi qurbanları üçün dövlət səviyyəsində təzminatların ödənilməməsi və mövcud qərarların yalnız kanton səviyyəsində bölgənin dominant etnik qrupunu dəstəkləyi ilə qəbul edilməsidir. Əmlakın bərpası baxımından müəyyən irəliləyiş əldə edilsə belə, qaçqın və köçkünlər iş imkanları və yeni qonşularla əlaqələr baxımından çətinliklərlə üzləşməkdə davam edirlər.

Vətəndaş cəmiyyəti iştirakçılığı ilə sülh quruculuğu prosesi də digər istiqamətlərdəki əngəlləri yaşamaqdadır. 3-cü trek təşəbbüslər etno-millətçilikdən uzaq formada demokratiya, insan haqları və açıq iqtisadiyyata yönəlmiş "ideal" vətəndaş cəmiyyəti Avropa modelinə əsaslanır ki, bu da yerli əhalinin Bosniya və Herseqovinada neoliberal idarəçilyin qurulması səyləri kimi qiymətləndirilərək müqavimətlə üzləşir. Qeyd edilən problem özlüyündə isə yerli ictimaiyyət tərəfindən mədəniyyəti, tarixi və ənənələri ilə bir araya sığmadığı iddiası ilə əsaslandırılır.

İstənilən halda, etnik-dini və siyasi müxtəlifliyə sahib Bosniya post-münaqişəsi cəmiyyətlər üçün yeni sosial siyasətə və unitar narrativ diskursuna ehtiyac duyur. Geosiyasi şərtlərin daxili auditoriyaya nüfuzu müxtəlif bölgələrdə hələ də canlı saxlanılan separat meyilləri gücləndirmək potensialına malikdir ki, ortaq konsensusu çətinləşdirən federal prezidentlik sisteminə sahib kommunitar demokratiya modeli bu məsələdə güclü rıçaqlara sahib deyil. Lakin etimadın yaradılmasından pozitiv sülhə, sonra isə barışığa gedən yolu Bosniya xalqı özü keçməlidir. Təhsil, media və vətəndaş cəmiyyətinin sülhquruculuğundakı payı artırılmalı və bu istiqamətdə kollektiv yaddaş formasiyası yenilənməlidir.

# Keçid Ədaləti Praktikada:
# Keçmiş Necə Aşıldı?

***Şahım Əfəndiyeva***

Şəkildə gördüyünüz Srebrenitsa gülüdür, Srebrenitsa-Potoçari xatirə muzeyinin yaxınlığındakı sərgidəndir. Müharibədə ailə üzvlərini itirmiş qadınların birgə təşəbbüsü ilə yaradılmış sərgidə onların əsərlərini və əl işlərini görmək mümkündür. Əsərlərin əksəriyyəti müharibə motivlidir və Srebrenitsa gülünü də burada tapmaq mümkündür. Kənardan çox adi bir gülə bənzəsə də, özündə daşıdığı məna dərindir. Belə ki, gülün ağ ləçəkləri həyatını itirmiş şəxslərin məzarlarını, yaşıl özək isə İslam dinini təmsil edir.



***Şəkil 2. Srebrenitsa gülü***

Əslində, müharibənin hər kəsdə bir izi vardır, kimi ailəsini, kimi isə öz qohumlarını müharibədə itirmişdir. Lakin ən sarsıdıcı məqam odur ki, bəzi ailələr hələ də itkin düşmüş yaxınlarını axtarır, bəzən isə bir ailə bütünlüklə müharibədə həyatını itirdiyindən onlar haqqında heç danışılmır. Müharibənin qoyduğu və bu gün də hiss edilən təsirləri çoxdur. Müharibədən sonra praktikada ədalətin bərqərar edilməsi isə müzakirə mövzusudur, həmçinin keçmişin necə aşıldığı, əgər həqiqətən aşılmışdırsa.

Tarixən Bosniya və Herseqovina (BiH) müxtəlif mədəniyyət və millətlərin birgə yaşadığı yer olmuşdur. Lakin bu müxtəliflik, keçmiş Yuqoslaviyanın parçalanmasından və BiH-nin müstəqil dövlət kimi qurulmasından sonra Avropada uzun müddət öz təsirlərini qoyacaq Bosniya müharibəsinə səbəb oldu. Müharibədə minlərlə qadın təcavüzə məruz qaldı və 1 milyondan çox insan isə öz evlərini tərk etməyə məcbur edildi. Srebrenitsa BMT tərəfindən neytral və təhlükəsiz zona elan edilsə də, 1995-ci ilin iyul ayında bosniyalı serblərin ordusu tərəfindən işğal edilməsindən sonra, sadəcə bir neçə gün ərzində 8 mindən çox müsəlman öldürüldü. BMT-nin varlığı isə effektiv olmaqdan çox, psixoloji idi; insanları sakit saxlamaq üçün mövcud idi. Srebrenitsa qətliamı Avropada İkinci Dünya Müharibəsindən sonra qəbul edilmiş yeganə soyqırımı kimi qalır.

Müharibə öz ardında sadəcə fiziki dağıntılar deyil, həm də böyük travma, itkilər, qeyri-müəyyənlik və bölünmə buraxdı. Deyton razılaşmasından sonra BMT Təhlükəsizlik Şurası müharibə cinayətləri dəlillərinin toplanması, hüquqi prosedur və məhkəmə hökmlərinin verilməsi və soyqırımın baş verdiyinin təsdiqi üçün Keçmiş Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalı təşkil etdi. Formal olaraq Bosniya müharibəsindən sonra keçid ədalətinin hər bir fazasına çatılmağa çalışılsa da, Deyton razılaşması təhsil, mədəni, vətəndaş cəmiyyəti məsələləri və müharibənin travmatik nəticələrindən daha çox ərazilərin necə bölünəcəyinə fokuslandı. Razılaşma müharibənin və ölümlərin dayanmasında uğurlu oldu,

lakin uzun müddətli ədalət sisteminin qurulması və pozitiv sülhün təmin edilməsindən danışarkən uğuru bir qədər sorğulanmalıdır.

Bunu qeyd etmək lazımdır ki, müharibənin yoxluğu cəmiyyətdə müharibənin olmadığı mənasına gəlmir. Keçmiş Yuqoslaviya Beynəlxalq Məhkəməsində sadəcə 90 nəfər müharibə cinayətlərinə görə məhkum edilmişdir. Bu isə sadəcə az sayda insanın məsuliyyətə cəlb olunduğuna görə müəyyən narazılıqlara səbəb oldu, gözləntiləri isə qarşılamadı.

O zaman belə suallar yarana bilər: onda ədalət necə gətirilməlidir? Ümumilikdə, ədalət nədir? Ədalət təmin olunmadıqdan sonra barışıqdan danışmaq mümkün deyildir. BiH-da isə Deyton razılaşmasından sonra Srebrenitsa, Serb Respublikası adlanan administrativ vahidin daxilində qaldı və soyqırımı inkar edən serb millətçilər tərəfindən idarə olunmağa başlandı.

Müharibənin bitməsindən az qala 30 il keçməsinə baxmayaraq cəmiyyətdə davam edən qütbləşmələr, konfliktin hələ də davam etməsinin və pozitiv sülhə maneə olduğunun sübutudur. Xüsusilə, Srebrenitsanın inkarı, keçmişlə üzləşmə və məhkəmələr tərəfindən müəyyən edilmiş həqiqətə əsaslanan razılığın yaradılmasına hələ də əsas maneə kimi qalmaqda davam edir. Srebrenitsa Xatirə Mərkəzinin "Srebrenitsa Soyqrımı İnkarı Hesabatına" əsasən, 2023-cü ildə Srebrenitsa soyqırımını əsas inkar edən şəxslər Serb Respublikasının siyasətçiləridir. Post-müharibə dövründə, inkaretmə psixoloji şiddətin bir növüdür. Bu müharibədən sağ çıxmış insanların travmatik yaddaşını yeniləyir, nəinki onların ləyaqətlərini alçaldır, eyni zamanda onları inamsızlığa və cəmiyyətdən izolyasiyaya sövq edir. Bununla bərabər, soyqırım inkarı və həqiqətdən qaçma sabitliyə qarşı təhlükədir, bu nəinki ekstremist ideologiyaları artırır, həmçinin tarixi yaddaşın silinməsinə, sağ qalanların təcrid edilməsi və onların itkilərinə qarşı empatiyanın azalmasına səbəb olur. Hələ də Srebrenitsada şagirdlər, məktəblərdə tarix dərslərində nə baş verdiyi və soyqırımı haqqında heç bir məlumat almırlar, hətta öz yaxınlarını itirənlər belə.

Son zamanlarda soyqırımının inkarı Bosniya cəmiyyətində diqqət çəkən və böyük qeyri-stabilliyə səbəb olan amillərdən biridir. Hətta BiH Cinayət məcəlləsinə soyqırımın inkarı və müharibə cinayətkarlarının qəhrəmanlaşdırılmasını qadağan edən 2021-ci il düzəlişi də bu təcrübələrə son qoymayıb. Dəhşətlidir ki, inkar edilən təkcə qətliamın özü yox, həm də 1995-ci ilin iyulundan Srebrenitsa və onun ətrafında, Çrni Vrx (Crni vrh), Tomaşitsa (Tomasica), Perusats gölü (Lake Perucac) və Koriçani qayalıqları (Koricani Cliffs) ətrafında tapılan, ilkin, ikinci dərəcəli və hətta üçüncü dərəcəli kütləvi məzarlar daxildir. Kütləvi məzarlıqların əksəriyyəri Serb Respublikası daxilində qalmaqdadır və Serb Respublikasının siyasi rəhbərliyi müharibə bitdiyindən bəri bu yerlərin açıqlanmasından imtina edir. Bu da soyqırım inkarını gücləndirir. 1995-ci ilin iyul ayında və sonrakı tarixdə, Serb Respublikasının ordusu həlak olanların cəsədlərinin ağır texnikadan istifadə edərək ikinci və üçüncü dərəcəli yerlərə köçürülməsini əmr etmişdi. Məqsəd fiziki sübutların məhv edilməsi idi.

Müharibə cinayətlərinin danılması barışıq və post-müharibə dövründə travma ilə mübarizə səylərini zəiflədir, diskriminasiya və cəmiyətdəki seqreqasiyanı gücləndirir.

Ümumilikdə, bunu qeyd etmək lazımdır ki, keçid ədalətindən danışarkən, münaqişə yaddaşının yumşaldılmasına və yaxşılaşmasına gətirib çıxaracaq hüquqi və mədəni prioritetlərin müəyyən edilməsindən danışılmalıdır. Bunun üçün müharibənin izləri olan bir çox fiziki, psixoloji və emosional problemlərlə məşğul olunmalıdır. Beləki, keçid dövrünü yaşayan cəmiyyətdə bir çox insan fiziki zorakılığa məruz qalmış və ya travma almışdır. Travma ilə bağlı problemlər həll edilməli, ədalət məhkəməsinin hüquqi aspekti, istər rəsmi ədliyyə sistemlərindən, istər qeyri-rəsmi ədliyyə sistemlərindən, istərsə də yerli sistemlərdən danışılsın, insanların konfliktlərini, problemlərini və itkilərini ədalətli və tərəfsiz bir gerçəkliyə gətirmələrinə kömək edəcək bir sistem yaradılmalı və cəmiyyətin keçmişi aşması üçün uzun müddətli və insanlar üçün işləyən ədalət sistemi yaradılmalıdır. Aydındır ki, Beynəlxalq Cinayət Məhkəməsi və digər beynəlxalq təşkilatlar cəmiyyətlərin post-müharibə dövründə xüsusi rol oynayır, lakin mediasiya, üzləşmə və sülh mexanizmaları, anma və təhsil proqramlarının da rolu danılmazdır. Bunlar, şiddətlə mübarizə aparan insanlar üçün daha stabil və ədalətli cəmiyyəti yaratmaq üçün keçid ədaləti sisteminin bir parçasıdır.

Ümumilikdə, keçid ədalətinə, gerçəyin ortaya çıxması, ədalətə çatılması, təzminatların ödənilməsi və gələcək insan hüquqları pozuntularının qarşısının alınması üçün ehtiyat tədbirlərinin və cəza sistemlərinin müəyyən edilməsi daxildir. Lakin hal-hazırda BiH-dakı disfunksional və bölünmüş insitutlar, təhsil sistemindəki fərqliliklər, müharibədən sonrakı dövrdə siyasi aktorların nitqində nifrət və inkar nitqinin davamlılığı və buna qarşılıq cəza və müdaxilə tədbirlərinin yoxluğu keçmişin aşılmasına maneədir.

**QR kod vasitəsilə məqalələrin ərsəyə gəlməsində rol oynayan təhsil səfəri haqqında olan “Təhsil səfərləri: Balkanlardan Bakıya” podkast seriyasına keçid edə bilərsiniz.**